RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 180 (9925) 27 avqust 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Mənəvi bağlar və qarşılıqlı maraqlar üzərində formalaşan strateji əməkdaşlıq

Cənubi Qafqazda bərqərar olmuş siyasi sabitlik və iqtisadi yüksəliş perspektivləri, eyni zamanda Rusiya-Ukrayna müharibəsi sayəsində şimaldan keçən ənənəvi marşrutun iflic vəziyyətinə düşməsi sülh və sabitlik coğrafiyasına çevrilən bölgəmizin logistik imkanlarını artırır. Bu gün Orta dəhliz dünya iqtisadiyyatı və qlobal ticarət prosesinin əsas trendlərindən birinə çevrilib. Bu yükdaşıma marşrutunun qarşıdakı illərdə mühüm logistika arteriyasına çevrilməsi üçün ciddi əsaslar var.

Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov mətbuata verdiyi bəyanatda xüsusi vurğuladı ki, ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri də nəqliyyat sektorudur: "Biz Böyük İpək yolunun bərpası üçün Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində əlaqələri genişləndirmək barədə razılığa gəldik. Xüsusən Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanlarını nəzərdən keçirdik".

Orta dəhlizin ümumdünya logistika prosesindəki rolu və çəkisinin artımı meydana yeni perspektivli əməkdaşlıq sahələrini çıxarır və bunlardan ən vacibi çox güman ki, ölkələrimizin enerji daşıyıcılarının hasilatı və nəqli sahəsindəki əməkdaşlığını daha da aktual edir. Azərbaycan və Türkmənistan iri karbohidrogen yataqlarına malikdirlər və illərdir Avropa bazarlarına neft və mavi yanacaq ixrac edirlər. Azərbaycanın bu proses üçün müasir və əlverişli infrastrukturu mövcuddur. Söhbət Azərbaycandan Avropa bazarlarına neft və qaz nəql edən kəmərlərdən gedir. Orta dəhliz istiqaməti üzrə proseslərin intensivləşməsi və həcmlərin artması ticarətlə yanaşı, enerji daşıyıcıları infrastrukturunun da genişlənməsini tələb edir. Türkmənbaşıdakı görüşün mühüm bir hissəsi də məhz bu mövzuya həsr olunmuşdu.

Üç ölkənin energetika sahəsində əməkdaşlıq perspektivlərinin nəzərdən keçirilməsi, karbohidrogen yataqlarının işlənməsi və hasil olunan elektrik enerjisinin ixracı üzrə perspektiv layihələr, əmtəə dövriyyəsinin böyük həcmdə artırılması və sənaye kooperasiyası miqyaslarının genişləndirilməsi danışıqların gündəliyində əsas yer tuturdu. Yeri gəlmişkən, əgər Orta dəhlizə enerji daşıyıcılarının nəqli müstəvisindən baxırıqsa, alternativ enerji mənbələri və yaxud ekoloji cəhətdən təmiz - günəş və küləkdən əldə edilən enerji amilini də unutmamalıyıq. Azərbaycanla yanaşı, Özbəkistan da bu sahəyə iri yatırımlar edir və əldə edilən məhsulun Avropaya ixracı istiqamətində dövlətlərimiz arasında sıx işbirliyi var. Azərbaycanın təşəbbüsü ilə Gürcüstan və Qara dənizin dibi ilə Rumıniya və Macarıstana qədər uzanacaq xüsusi kabelin inşası prosesinə artıq start verilib. Bu xətlə təkcə Azərbaycan deyil, qardaş türk dövlətlərinin də istehsal etdikləri "yaşıl enerji" Avropaya nəql edilə bilər.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında xüsusi vurğuladı: "Müzakirə olunan məsələlər burada artıq qeyd olundu, onları təkrar etmək istəmirəm. Amma bir şeyi deyə bilərəm, artıq müvafiq dövlət qurumlarına göstərişlər verildi ki, üçtərəfli əməkdaşlıq formatı yaradılsın və bizim növbəti görüşümüzə konkret istiqamətlər üzrə təkliflər verilsin. Bu göstərişlər verildi. Yenə də deyirəm, burada səslənmişdi - nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələri və mədəni əlaqələr. Qaldı ki, bütün bu göstərişlərin vaxtında yerinə yetirilməsinə, mənim buna da şübhəm yoxdur".

6

## Qlobal nüfuzun növbəti təsdiqi



### Donald Trampın şəxsi imzası ilə İlham Əliyevə hədiyyə etdiyi fotoşəkillər və üzərində yazdığı xoş sözlər ABŞ Prezidentinin dövlətimizin başçısına olan yüksək ehtiramının təcəssümüdür

Prezident İlham Əliyevin Vaşinqtonda Donald Tramp tərəfindən ən yüksək səviyyədə qarşılanması, olduqca səmimi ovqatda keçirilən görüşlər, dövlətimizin başçısına Ağ Evin rəmzi açarının verilməsi İlham Əliyevin ehtiram göstərilən siyasi lider olduğunu bir daha nümayiş etdirdi. Qeyd edək ki, bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. ABŞ rəhbərliyi Ağ Evdə heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident Donald Tramp özü də etiraf etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir. Vaşinqtonda Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanması zamanı da Donald Tramp Prezident İlham Əliyev haqqında "Siz böyük lidersiniz" söyləməsi də diqqətdən yayınmadı.

3

## Murovdağ tuneli - MDB-də 1-ci, Avropada 5-ci



### Toğanalı-Kəlbəcər-İstisu yolu rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, turizmin inkişafına mühüm töhfə verəcək

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şərqi Zəngəzura səfərləri zamanı bu yollardan biri - Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlət başçısı yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

2021-ci ilin avqustunda Prezident İlham Əliyevin təməlini qoyduğu bu mühüm infrastruktur layihəsinin uzunluğu 82 kilometrdir. Yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır.

Yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Ərazidə yüksəklik 1700 metrdən 3250 metrədək artır. Qış fəslində avtomobil yolunun təhlükəsiz istismarı üçün Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib. Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə 1-cidir. Tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Tuneldə qazma, həmçinin sağ və sol hissələri birləşdirən 38 keçid tuneli üzrə işlər artıq başa çatdırılıb. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir. Tunellərdə əsas tikinti işləri, o cümlədən qazma, kəmər-beton və digər texniki işlərin çoxu artıq yekunlaşıb. Yeri gəlmişkən qeyd edək ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində ümumilikdə işlərin 87 faizi icra olunub.

3

## Bakıdan gələn güc

### Bəs Avropanın enerji xilası, belə demək mümkündürsə, strateji tərəfdaş hesab etmədiyi bir ölkədən asılıdırsa?!

Azərbaycanın rolu yalnız fosil yanacaqlarla məhdudlaşmır. 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində ölkə bərpaolunan enerji mərkəzi olma vizyonunu təqdim etdi. Məlumat verildi ki, Azərbaycanda 27 GW-dan çox quru külək və günəş gücü, habelə təxminən 150 GW dənizüstü potensial mövcuddur. Ölkəmiz Masdar, ACWA Power və BP daxil olmaqla beynəlxalq tərəfdaşlarla birlikdə "yaşıl enerji" sektorunu inkişaf etdirmək üzərində çalışır.

Ən ambisiyalı təkliflərdən biri Xəzər-Avropa "Yaşıl Enerji" Dəhlizidir. Bu dənizaltı ötürücü xətt Azərbaycanın elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniya və Macarıstana çatdıracaq. Realizə olunduqda bu dəhliz Xəzər "yaşıl enerji"sinin Avropaya ilk böyükmiqyaslı ötürücüsü olacaq və regional əməkdaşlıq üçün mühüm mərhələ təşkil edəcək.

Lakin fosil yanacaq sahəsində olduğu kimi, Azərbaycanın bərpaolunan enerji ambisiyaları da Brüsseldən aydın siyasi dəstək və investisiya tələb edir. Layihə hazırda Avropa İttifaqının "Qlobal Qapı" strategiyasına daxil edilsə də, icra baxımından hələ ciddi irəliləyiş müşahidə olunmayıb.

6

## Heydər Əliyev Fondu uşaqlar üçün növbəti əyləncə tədbirləri təşkil edib




4

# Hökumətin Azərbaycan Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası keçirilib

Avqustun 26-da Nazirlər Kabinetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası keçirilib.





Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, iclası giriş nitqi ilə açan Baş nazir Əli Əsədov Azərbaycan Prezidentinin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfərinin ölkəmizin beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində yeni perspektivlər açdığını bildirib.

Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust Zəfərinin Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsi olduğu vurğulanıb.

Vaşinqtonda keçirilmiş görüşlərin və imzalanmış sənədlərin əhəmiyyəti barədə bəhs edən Baş nazir səfərin bir tərəfdən, Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, digər tərəfdən isə, Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün təmin edilməsi istiqamətində mühüm addımların atılması ilə əlamətdar olduğunu diqqətə çatdırıb.

"Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) ilə bağlı əldə edilmiş razılığın əhəmiyyəti vurğulanaraq, layihənin Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməklə yanaşı, regionda nəqliyyat əlaqələrinin inkişafına, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi diqqətə çatdırılıb. Bununla əlaqədar olaraq, müvafiq tapşırıqların icrası üçün hökumət tərəfindən gündəlik əsasda işin həyata keçirilməsinin zəruriliyi qeyd edilib.

Daha sonra Baş nazirin müavini Şahin Mustafayevin, xarici işlər naziri Ceyhun Bayramovun, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin çıxışları dinlənilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Vaşinqton səfərinin nəticələrindən irəli gələrək hökumət qarşısında duran vəzifələr müəyyən edilib.

# Xarici ölkə prokurorluqlarının nümayəndələri Qarabağ Universitetində olublar

Azərbaycan Respublikasının baş prokurorunun müavini Heydər Məmmədov MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov, onun müavini Abduraxmon Xotambekov, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokurorları Ahmet Gökay Aktaş və Mustafa Yakar, eləcə də Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani ilə birgə 21-22 avqust tarixlərində Şuşa və Xankəndi şəhərlərinə səfər ediblər.




Əvvəlcə Şuşa şəhərində olan qonaqlar Heydər Məmmədovun müşayiətilə Yuxarı Gövhər ağa məscidini, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Cıdır düzünü və digər tarixi-mədəni abidələri ziyarət ediblər. Şuşanın özünəməxsus memarlıq üslubu, qədim tarixi və füsunkar təbiət mənzərələri nümayəndə heyətində dərin təəssürat yaradıb. Qonaqlar şəhəri mədəni və tarixi baxımdan böyük dəyərə malik bir irs nümunəsi kimi dəyərləndiriblər.

Daha sonra səfər Xankəndi şəhərində davam edib. Zəfər meydanı ilə tanışlıqdan sonra qonaqlar Qarabağ Universitetini ziyarət ediblər və universitetin rektoru Şahin Bayramov tərəfindən qarşılanaraq onlara təhsil ocağı barədə məlumat verilib, ali təhsil müəssisəsində aparılan işlər, qarşıda duran vəzifələr haqqında ətraflı danışılıb.

Ziyarət zamanı nümayəndə heyəti ali təhsil müəssisəsində həyata keçirilən elmi-tədris prosesi, akademik mühit və inkişaf perspektivləri ilə tanış olublar. Nümayəndə heyətləri universitetin müasir yanaşmalar əsasında fəaliyyət göstərməsini yüksək qiymətləndirib, burada formalaşan təhsil mühitinin regionun intellektual inkişafına töhfə verəcəyini vurğulayıb, eləcə də gələcəkdə bu təhsil ocağı ilə əməkdaşlıq təklifinə müsbət yanaşıblar.

Səfər çərçivəsində nümayəndələr Xankəndi şəhərinin mərkəzində yerləşən memarlıq abidələrinə, mədəniyyət ocaqlarına və digər tarixi məkanlara da baxış keçiriblər. Qonaqlar Xankəndidə aparılan bərpa və inkişaf işlərini təqdirlə qarşılayıb, şəhərin həm tarixini qoruyan, həm də müasirliyə inteqrasiya olunan simasını yüksək qiymətləndiriblər.

# II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində olublar

Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ICESCO ilə birgə təşkil etdiyi "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində olublar.




AZƏRTAC xəbər verir ki, forumun iştirakçıları Xankəndi şəhərinə gələrək, burada aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar.

Daha sonra forum iştirakçıları BBMM-in şöbə müdiri İrina Kuninanın "Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri" mövzusunda mühazirəsini dinləyiblər. O diqqətə çatdırıb ki, Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Mühazirə forum iştirakçıları tərəfindən maraqla qarşılanıb və müzakirələrlə davam edib.

Forum çərçivəsində iştirakçılar Milli Məclisin deputatı, siyasi elmlər doktoru Rizvan Nəbiyevin "Bakının sülh diplomatiyası: beynəlxalq hüquqda qayıdış hüququ və Azərbaycan konteksti" mövzusunda mühazirəsini də dinləyiblər. Deputat çıxışında 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar, Prezident İlham Əliyevin sülh təşəbbüsləri, Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, həmçinin 2025-ci ildə Vaşinqtonda imzalanmış üçtərəfli Bəyannamə barədə danışıb. O, Azərbaycanın sülh diplomatiyasının Cənubi Qafqazda sabitlik və əməkdaşlıq üçün yeni imkanlar açdığını vurğulayıb. Məruzədə ABŞ-lə strateji əməkdaşlıq, 907-ci düzəlişin tətbiqinə verilən imtinanın uzadılması, işğalın nəticələri və məcburi köçkünlərin geri dönüş hüququ kimi məsələlər də diqqətə çatdırılıb.

R.Nəbiyev həmçinin uzun illər davam edən işğalın nəticələri - şəhər və kəndlərin dağıdılması, mina təhlükəsi, 700 minə yaxın məcburi köçkünün geri dönüş hüququ, habelə itkin düşmüş və taleyi naməlum olan 4 minə yaxın şəxsin faciəsi ilə bağlı faktları da qeyd edib. Eyni zamanda 1980-ci illərdə Ermənistandan qovulmuş 300 min azərbaycanlının qayıdış hüququnun təmin olunmamasına toxunaraq bu hüququn beynəlxalq sənədlərlə tanındığını vurğulayıb.

Forum iştirakçıları "Müasir konfliktlər zamanı sülhün bərpasında dinin rolu" mövzusunda interaktiv müzakirə aparıblar.

Sonra "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçılarının Şuşa şəhərinə ekskursiyası təşkil olunub. Ekskursiya çərçivəsində gənclərə şəhərin tarixi, mədəni və dini abidələri barədə ətraflı məlumat verilib. İştirakçılar Xurşidbanu Natəvanın evi və Bülbülün muzeyini ziyarət ediblər. Onlara bu görkəmli şəxsiyyətlərin Azərbaycan mədəniyyətindəki yeri və işğal dövründə abidələrə vurulmuş zərərlər haqqında məlumat verilib.

Daha sonra qonaqlar Şuşa qalası, Yuxarı Gövhər ağa məscidi və Vaqifin məqbərəsini gəzib, restavrasiya və bərpa işləri ilə tanış olublar. Ekskursiya zamanı gənclərə Şuşanın Azərbaycanın musiqi və poeziya beşiyi olması, şəhərin çoxmillətli mədəniyyət mərkəzi kimi tarixi əhəmiyyəti, habelə işğaldan azad olunmasından sonra həyata keçirilən yenidənqurma layihələri barədə məlumat verilib. Forum iştirakçıları həmçinin Cıdır düzünü ziyarət edərək Qarabağın gözəl təbiəti ilə tanış olublar və burada xatirə şəkilləri çəkdiriblər.

Forum çərçivəsində "Öz xalqını təqdim et" adlı musiqili axşamlar da təşkil olunub. Burada iştirakçılar öz xalqlarının mədəniyyəti, adət-ənənələri ilə bağlı məlumat veriblər.

Qeyd edək ki, "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr olunan II Beynəlxalq Multikulturalizm Gənclər Forumuna avqustun 22-də start verilib. Bakı, Şuşa və Xankəndi şəhərlərində keçirilən foruma dünyanın 50-dən çox ölkəsindən 70-dək iştirakçı qatılıb.

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu CƏDVƏLİ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Naftalan** | Naftalan, Gəncə, Goranboy, Samux, Göygöl, Daşkəsən, Xocalı, Kəlbəcər | **04** |
| 2. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Ucar** | Ucar, Kürdəmir, Göyçay, Ağdaş | **04** |
| 3. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ağdaş** | Ağdaş, Göyçay | **05** |
| 4. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | **05** |
| 5. | **Energetika naziri** Pərviz Şahbazov | **Samux** | Samux, Gəncə, Şəmkir, Göygöl, Daşkəsən, Goranboy, Naftalan | **12** |
| 6. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Şəmkir** | Şəmkir, Göygöl | **12** |
| 7. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | **12** |
| 8. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Şamaxı** | Şamaxı, Qobustan | **12** |
| 9. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Mingəçevir** | Mingəçevir, Yevlax | **12** |
| 10. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Göyçay** | Göyçay, Ağdaş | **12** |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Şabran** | Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən | **15** |
| 12. | **Baş prokuror** Kamran Əliyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **16** |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Ağsu** | Ağsu, İsmayıllı, Şamaxı, Qobustan | **18** |
| 14. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **19** |
| 15. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **19** |
| 16. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Oğuz** | Oğuz, Şəki, Qəbələ | **19** |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan, Neftçala | **19** |
| 18. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | **25** |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Gədəbəy** | Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax | **26** |
| 20. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Bərdə** | Bərdə, Tərtər | **26** |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **26** |
| 22. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Xaçmaz** | Xaçmaz, Şabran | **26** |
| 23. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **26** |
| 24. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Cəlilabad** | Cəlilabad, Masallı, Yardımlı | **29** |
| 25. | **Mədəniyyət naziri** Adil Kərimli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **30** |
| 26. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Quba** | Quba, Qusar, Xaçmaz | **30** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.




# Qlobal nüfuzun növbəti təsdiqi

## Donald Trampın şəxsi imzası ilə İlham Əliyevə hədiyyə etdiyi fotoşəkillər və üzərində yazdığı xoş sözlər ABŞ Prezidentinin dövlətimizin başçısına olan yüksək ehtiramının təcəssümüdür

Dövlətin inkişafı, beynəlxalq nüfuzunun, o cümlədən xalqın rifahının yüksək olması müxtəlif siyasi və sosial-iqtisadi amillərlə yanaşı, həm də ona rəhbərlik edən şəxsin siyasi, mənəvi və liderlik keyfiyyətləri ilə birbaşa əlaqəlidir. Lideri güclü olan dövlətə dünyada da ehtiramla yanaşırlar. Rəhbər qətiyyətli olanda dövlət qarşısında dayanan bütün milli məqsədlərə çata bilir.

### Donald Tramp: "İlham, siz böyük lidersiniz!"

Güclü liderlərin dövlətlərin taleyindəki tarixi xidmətləri barədə çoxsaylı misallar göstərmək mümkündür. Çağdaş siyasətdə bunun ən böyük nümunələrindən biri Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti və ona göstərilən yüksək beynəlxalq ehtiramdır. Bu günlərdə ABŞ Prezidenti Donald Trampın şəxsi imzası ilə Prezident İlham Əliyevə hədiyyə etdiyi tarixi fotoşəkillər və həmin fotoların üzərində yazdığı, "İlham, siz böyük lidersiniz!" və digər xoş sözlər bir daha dövlətimizin başçısının hörmətlə qarşılanan lider olmasının və yüksək beynəlxalq nüfuzunun təcəssümünə çevrildi. Qeyd edək ki, Prezident İlham Əliyev Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib, təşəkkürünü bildirib.

Xatırladaq ki, Prezident İlham Əliyevin Donald Trampın dəvəti ilə avqustun 7-8-də Vaşinqtona etdiyi işgüzar səfər Azərbaycanın siyasi-diplomatiya tarixinin ən mühüm hadisələrindən oldu. Bu səfər respublikamızı bir daha dünyaya yaxından tanıtdı, onun beynəlxalq nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi və Azərbaycanla Ermənistan arasında aparılan sülh prosesini hüquqi baxımdan gücləndirdi. Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bu barədə danışan Prezident İlham Əliyev Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açıldığını bəyan etdi: "Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi".

### ABŞ Prezidentinin xoş sözləri real həqiqətlərə əsaslanır

Prezident İlham Əliyevin Vaşinqtonda Donald Tramp tərəfindən ən yüksək səviyyədə qarşılanması, olduqca səmimi ovqatda keçirilən görüşlər, dövlətimizin başçısına Ağ Evin rəmzi açarının verilməsi İlham Əliyevin ehtiram göstərilən siyasi lider olduğunu bir daha nümayiş etdirdi. Qeyd edək ki, bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. ABŞ rəhbərliyi Ağ Evdə heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident Donald Tramp özü də etiraf etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir. Vaşinqtonda Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanması zamanı da Donald Tramp Prezident İlham Əliyev haqqında "Siz böyük lidersiniz" söyləməsi də diqqətdən yayınmadı.

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri zamanı ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalaması da bir daha dövlətimizin başçısına olan ehtiramdan xəbər verdi. Bu baxımdan ABŞ Prezidentinin sözügedən sərəncamı həm də rəmzi məna daşıdı.

Əlbəttə, bütün bunlar barədə fikir yürüdərkən ABŞ-nin əvvəlki administrasiyasının Azərbaycana qarşı nümayiş etdirdiyi qərəzli münasibəti də unutmuruq. Bu qərəzin kökündə dayanan səbəblər bir tərəfdən, erməni sevgisi ilə bağlı idisə, digər tərəfdən, Bayden-Blinken cütlüyü Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə razılaşa bilmirdilər. Məhz onların rəhbərlikləri dövründə Azərbaycana, dövlətimizin başçısına təzyiq etmək, öz yolundan döndərmək üçün ən müxtəlif yollara əl atdılar. Hətta Baydenin hakimiyyəti dövründə Azərbaycandan rəsmi nümayəndə heyətlərinin ABŞ-yə səfərlərinə məhdudiyyət tətbiq olunmuşdu. Vaşinqtonda müxtəlif siyasi səviyyələrdə respublikamıza qarşı iqtisadi sanksiyaların tətbiq edilməsi ilə bağlı təkliflər eşidilirdi.

Lakin Prezident İlham Əliyevin qətiyyətli siyasəti qarşısında niyyətlərinə çata bilmədilər. Bayden administrasiyasının anti-Azərbaycan fəaliyyətinin qarşısında rəsmi Bakı heç vaxt geri çəkilmədi və qətiyyətli siyasət yürüdərək milli maraq və mənafelərini layiqincə təmin etdi.

ABŞ Prezidenti Donald Tramp isə Baydendən fərqli olaraq reallıqları düzgün dəyərləndirir. Bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayan, regionda və dünyada söz sahibi olan dövlət kimi tanınan, ərazilərini döyüş yolu ilə işğaldan azad edən Azərbaycan beynəlxalq akutal məsələlərin müzakirəsində yaxından iştirak edir. "Bizim sözümüz imzamız qədər dəyərlidir" deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hər zaman əməkdaşlığa sadiq olub, tərəfdaşlarına arxa durub. Elə buna görə Prezident İlham Əliyev dünyada sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən siyasi liderlərdəndir. ABŞ kimi supergücün rəhbərinin Prezident İlham Əliyevlə bağlı xoş sözlər söyləyərkən, əlbəttə ki, obyektiv və real həqiqətlərə əsaslanır, dövlətimizin başçısının liderlik keyfiyyətlərinə istinad edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Murovdağ tuneli - MDB-də 1-ci, Avropada 5-ci

## Toğanalı-Kəlbəcər-İstisu yolu rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, turizmin inkişafına mühüm töhfə verəcək




Artıq 5 ilə yaxındır ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində misli görünməyən tikinti-quruculuq işləri davam edir. Demək olar ki, hər həftə ölkəmizin müxtəlif şəhər və rayonlarından keçmiş məcburi köçkün soydaşlarımızın doğma yurda köç karvanları hərəkət edir.

Əlbəttə ki, Böyük qayıdışın təmin edilməsi üçün vacib olan ən mühüm məsələlərdən biri də yol-nəqliyyat infrastrukturunun yenidən qurulmasıdır. Odur ki, hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Xatırladaq ki, 2020-2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həmçinin dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi aparılıb. Həmin layihələrin ümumi uzunluğu 3400 kilometrdir. Onlardan 7 avtomobil yolunun (Zəfər yolu, Əhmədbəyli-Füzuli-Şuşa yolu, Tərtər-Suqovuşan-Talış avtomobil yolu, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolu, Bərdə-Ağdam avtomobil yolu, Füzuli-Hadrut avtomobil yolu) tikinti işləri başa çatdırılıb.

Tikintisi davam edən 37 layihənin isə 2025-2026-cı illərdə başa çatdırılması planlaşdırılır. Bu layihələr çərçivəsində ümumilikdə 45 tunel, 447 körpü, 16 viaduk inşa ediləcək. 45 tunelin ümumi uzunluğu 70,8 km, 447 körpünün ümumi uzunluğu 9581,6 m, 16 viadukun ümumi uzunluğu isə 3871 metrdir.

Avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şərqi Zəngəzura səfərləri zamanı bu yollardan biri - Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlət başçısı yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

2021-ci ilin avqustunda Prezident İlham Əliyevin təməlini qoyduğu bu mühüm infrastruktur layihəsinin uzunluğu 82 kilometrdir. Yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır.

Yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Ərazidə yüksəklik 1700 metrdən 3250 metrədək artır. Qış fəslində avtomobil yolunun təhlükəsiz istismarı üçün Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib. Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə 1-cidir. Tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Tuneldə qazma, həmçinin sağ və sol hissələri birləşdirən 38 keçid tuneli üzrə işlər artıq başa çatdırılıb. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir. Tunellərdə əsas tikinti işləri, o cümlədən qazma, kəmər-beton və digər texniki işlərin çoxu artıq yekunlaşıb. Yeri gəlmişkən qeyd edək ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində ümumilikdə işlərin 87 faizi icra olunub.

Bu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yol rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, kənd təsərrüfatının, turizmin inkişafına töhfəsini verəcək.

Belə çətin coğrafi şəraitdə bu cür strateji əhəmiyyətə malik layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrimizdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması dövlətin diqqət mərkəzindədir.

Ümumiyyətlə, Avropada və dünyada uzun avtomobil tunelləri strateji əhəmiyyətə malikdir. Norveçdəki "Lerdal" tuneli (24,5 km) hazırda dünyanın ən uzun yol tunelidir. İsveçrənin "Gotthard" yol tuneli (16,9 km) Alp dağlarının altında yerləşir və Avropanı şimal-cənub xətti üzrə birləşdirir. Avstriyanın "Arlberg" tuneli (13,9 km) və Fransa-İtaliya sərhədindəki "Frejus" tuneli (12,8 km) də qitənin mühüm dağ keçidlərində nəqliyyatın təhlükəsizliyini təmin edir.

Murovdağ tuneli isə bu siyahıya regionun ən uzun avtomobil tuneli kimi düşəcək. MDB ölkələrində bu miqyasda heç bir yol tuneli yoxdur. Layihə çərçivəsində əlavə olaraq ümumi uzunluğu 2636 metr olan dörd tunel də inşa olunur. Bu yol bölgənin kənd təsərrüfatı, turizm və ümumilikdə sosial-iqtisadi həyatına yeni nəfəs gətirəcək.

Əlbəttə ki, belə çətin coğrafi relyefdə tunel inşası Azərbaycanın gücünü, iradəsini və yenidənqurma prosesinə verdiyi prioriteti nümayiş etdirir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Dünənin **dərsi**, bu günün **reallığı**, sabahın **hədəfi**

Bu gün Azərbaycan dünyada qalib ölkə kimi tanınır. Xalqımız bu qələbənin qüruru ilə yaşayır. Hər bir azərbaycanlı həm də fəxr edir ki, Azərbaycan tarixinin heç bir dövründə işğalçı adı qazanmayıb. Çünki bu xalqın nümayəndələri heç zaman özgə torpaqlarına göz dikməyiblər. Haqsızlıqlarla, ədalətsizliklə qarşılaşanda belə, nə haqqı unudublar, nə də ədalətdən üz çeviriblər.

XIX əsrin əvvəllərində iki ölkə - Rusiya və İran bir-biriləri ilə müharibə ediblər. Nəticəsi bizim məmləkətimiz üçün ağır olub. 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri tariximizin qara səhifələrinə, xalqımızın faciəsinə çevrilib. Azərbaycanı ikiyə bölüblər. Cənub hissəsinə İran, şimal hissəsinə isə çar Rusiyası yiyələnib. XX əsrdə Rusiyada baş verən inqilablar səbəbindən çar taxtdan endirilib. Çarizm devrilsə də, siyasi iğtişaşlar ara verməyib. Nəhayət, bolşeviklər hakimiyyəti ələ keçiriblər. Ancaq onlar da çarizmin müstəmləkə siyasətini davam etdiriblər. Müstəqilliyini elan etmiş, cümhuriyyət hökuməti qurmuş Şimali Azərbaycan bu dəfə də bolşeviklərin işğalına məruz qalıb. Azərbaycanda sovet hakimiyyətinin ömrü uzun sürüb. 70 il Azərbaycan sovet ittifaqının tərkibinə daxil edilmiş on beş respublikadan biri olub.

Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün hələ çarizm dövründə məkrli plan qurulub. Ermənilər Azərbaycan ərazisinə köçürülüb. Sığındıqları məmləkətin yerli əhalisinə ermənilər əsl simalarını sonralar göstərməyə başlayıblar. Hər dəfə siyasi vəziyyət mürəkkəbləşəndə "milli münaqişə" adı ilə gərginlik yaradıb, azərbaycanlılara qarşı hücuma keçiblər. Kütləvi qırğınlar, qətliamlar, soyqırımları törədən ermənilər Azərbaycan torpaqlarının bir hissəsində özlərinə "dövlət" qurublar. Lakin buna qane olmayıblar. Sovet hakimiyyəti illərində öz mənfur planlarını həyata keçirmək üçün hər cür hiyləyə, cinayətə əl atıblar. Bu dəfə də SSRİ rəhbərləri işğalçı ermənilərə havadarlıq edib, hər cür yardım göstərib.

Azərbaycan xalqı XX əsrin sonlarına bu məşəqqətlərdən keçərək gəlmişdi. 1980-ci illərin sonlarında, sovet hakimiyyətinin sonunun yaxınlaşmaqda olduğu vaxtda Qarabağda ermənilər yenidən məkrli oyunlara başladılar. Azərbaycandan yeni ərazilər qoparmaq üçün bölgəni münaqişə ocağına çevirdilər. 1990-cı illərdə sovet hökumətinin silahlandırdığı ermənilər Azərbaycan xalqına qarşı dəhşətli qətliamlar, soyqırımları törətdilər. Ölkəmizin 20 faiz ərazisini işğal etdilər, 1 milyon soydaşımızı yurdundan qovdular. 1994-cü ilin mayında atəşkəs sazişi imzalansa da, Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini və mülki vətəndaşlarının yaşayış yerlərini atəşə tutmaqda davam etdilər.

Ermənistan Qarabağı və Şərqi Zəngəzuru 30 ilə yaxın işğalda saxladı. Bu illər ərzində bir sıra dövlətlər və beynəlxalq təşkilatlar vasitəçilik adı ilə yalnız həmin ərazilərin işğalını uzatmağa çalışdılar. Lakin dövlətimizin başçısı İlham Əliyevin yüksək kürsülərdən səsləndirdiyi qətiyyətli cavablar onların məqsədlərinə çatmayacaqlarını göstərirdi. Prezident İlham Əliyev bəyan edirdi ki, Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

Sülhün tərəfdarı olan Azərbaycan dövləti beynəlxalq səviyyədə tanınmış ərazilərini - Qarabağı və Şərqi Zəngəzuru işğaldan danışıqlar yolu ilə azad etmək niyyətində olduğunu dönə-dönə bəyan edirdi. Ancaq havadarlarına arxalanan rəsmi İrəvan riyakarlıq edir, müxtəlif vasitələrlə sülh danışıqlarından yayınırdı.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Müharibənin 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı müzəffər Azərbaycan Ordusu 44 gün ərzində azad etdi. Əsgər və zabitlərimiz ağır döyüşlər apararaq böyük Zəfərimizə addım-addım yaxınlaşdılar. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən siyasəti, müdrik diplomatiyası, sərkərdəlik məharəti nəticəsində Ermənistan məğlubiyyətini təsdiqləmək məcburiyyətində qaldı.

2023-cü ildə isə Azərbyacan növbəti qələbəsini çaldı. Həmin ilin sentyabrında Azərbaycan Ordusu antiterror əməliyyatı apararaq Qarabağda qalıb terrorlar, təxribatlar törədən Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini və separatçıları Qarabağdan qovdu. Ölkəmiz tam suverenliyinə nail oldu. Ötən il sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edən Prezident İlham Əliyev tələbə heyəti ilə görüşdə Zəfərimiz və antiterror tədbirlərinin yaratdığı reallığı belə dəyərləndirdi: "8 Noyabr - Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr Dövlət Suverenliyi Günü idi".

Bu gün Azərbaycan dünyada güclü, nüfuzlu ölkə kimi tanınır. Dünyanın bir çox bölgələrində iğtişaşların, müharibələrin ara vermədiyi bir zamanda ölkəmiz sülhə, sabitliyə doğru qətiyyətlə, eyni zamanda keçmişin dərslərini unutmadan irəliləyir. Dövlətimizin başçısının bu il avqustun 21-də Kəlbəcər şəhərinə qayıdan yerli sakinlərlə görüşündə vurğuladığı kimi, Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün: "Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda sülhün təminatçısı da Azərbaycandır".

Tarixinin bütün dövrlərində olduğu kimi, yenə də çətin sınaqlardan alnıaçıq, üzüağ çıxmış, haqsızlığın önündə əyilməmiş, ədaləti özü bərpa etmiş Azərbaycan qürur və fəxarətə layiqdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz düşməndən qisasımızı döyüş meydanında aldıq: "Biz bir daha xalqımızın böyüklüyünü göstərdik. Onların bizə etdiklərini biz onlara etmədik. Halbuki onların etdikləri heç vaxt yaddaşımızdan silinməyəcək. O cümlədən kəlbəcərlilərə qarşı edilən hərbi cinayətlər, soyqırımı, Xocalı soyqırımı, digər bölgələrdən olan vətəndaşlarımıza qarşı düşmənçilik, ədavət və vəhşilik heç vaxt yaddaşımızdan silinməyəcək və silinməməlidir. Bunu mən həm müharibəni qazanan ölkənin Ali Baş Komandanı kimi və bu gün Ermənistanla, məğlub edilmiş Ermənistanla sülh prosesinin iştirakçısı kimi deyirəm. Biz istəmirik ki, müharibə olsun. Biz sülh istəyirik. Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq, ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb".

Prezident İlham Əliyev Azərbaycan dövlətinin və xalqının böyük qələbələrinin səbəbini belə açıqladı: "Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər qalib dövlət kimi yaşayacağıq".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondu uşaqlar üçün növbəti əyləncə tədbirləri təşkil edib











**Avqustun 26-da Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Bakının müxtəlif əyləncə məkanlarında uşaqlar üçün şənliklər keçirilib.**

AZƏRTAC xəbər verir ki, şənliklərdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə qəhrəmancasına həlak olmuş şəhidlərimizin övladları, eləcə də valideyn himayəsindən məhrum, internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyac duyan uşaqlar iştirak ediblər.

İstirahət məkanlarına xüsusi avtobuslarla gətirilən uşaqlar onlar üçün təşkil edilən əyləncələrdən zövq alıb, müxtəlif oyunlara, ustad dərslərinə qatılıb, rəqslərə qoşulublar.

İsti yay günündə uşaqlar həm də hovuzda doyunca əylənib, müxtəlif oyunlarda, o cümlədən köpük şouda iştirak ediblər.

Günboyu davam edən tədbirlər çərçivəsində uşaqlar üçün nahar süfrəsi də təşkil olunub.

Ad günləri bugünkü tarixə təsadüf edən uşaqlar isə bu özəl günü həmyaşıdları ilə birlikdə şənlənərək qeyd ediblər.

Tədbirlərin yekununda gözəl istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

AZƏRTAC-ın müxbirləri tədbirdə iştirak edən uşaqların təəssüratlarını öyrəniblər.

Əyləncə tədbirində iştirak edənlərdən biri də Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin giziri Şəhriyar Quliyevin 9 yaşlı oğlu Camal Quluzadə olub. O, AZƏRTAC-a müsahibəsində İdrak liseyində təhsil aldığını, atasının 2020-ci il oktyabrın 23-də Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olduğunu deyib.

C.Quluzadə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən əyləncədən xüsusi zövq aldığını vurğulayıb. Şənlik zamanı vaxtını səmərəli keçirdiyini və yeni dostlarla tanış olduğunu deyən şəhid oğlu tədbirin yüksək səviyyədə təşkilatçılığında əziyyəti keçən hər kəsə minnətdarlığını bildirib.

2023-cü ilin sentyabrında antiterror əməliyyatları zamanı Xocalı istiqamətində şəhid olan polkovnik-leytenant Əkbər Şadmanovun oğlu Araz Şadmanzadə həssas təbəqədən olan uşaqlar üçün təşkil edilən əyləncədən çox razı qaldığını, burada vaxtının yaxşı keçdiyini qeyd edib. O, tədbirin təşkilatçısı olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkür edib.

Şənlikdə iştirak edən səkkiz yaşlı Zəhra Quliyeva bu günün onun üçün əla keçdiyini və əyləncələri çox bəyəndiyini bildirərək deyib: "Bu gün həm hovuzda əyləndim, həm də köpük şouda iştirak etdim. Sonda mənə hədiyyə də verdilər. Buna görə çox sevinirəm".

On üç yaşlı Adil Həsənov isə günün onun üçün hər zamankından fərqli keçdiyini diqqətə çatdırıb. O qeyd edib: "Bu gün müxtəlif oyunlar oynadım, yeni dostlar qazandım, onlarla doyunca əyləndim. Sonda isə hədiyyə təqdim edildi. Bu gün yaddaşıma maraqlı və qeyri-adi bir gün kimi yazıldı".

Qeyd edək ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyac duyan uşaqların, həmçinin şəhidlərimizin bizə əmanəti olan övladlarının diqqətdə saxlanılması, həssas kateqoriyaya aid uşaqların hərtərəfli qayğı ilə əhatə edilməsi xüsusi yer tutur. Fond mütəmadi olaraq bu uşaqlar üçün əyləncəli tədbirlər keçirir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində səylərini davam etdirir.





# Azərbaycanın xarici siyasətinin uğurları



# Özbəkistan-Azərbaycan strateji qardaşlığı möhkəmlənir

**Özbəkistan bu gün "Özbəkistan - 2030" strategiyası çərçivəsində kompleks islahatlar yolu ilə inamla irəliləyir. Bu genişmiqyaslı proqram əhalinin həyat keyfiyyətinin hərtərəfli yüksəldilməsi, milli iqtisadiyyatın möhkəmləndirilməsi, turizm potensialının artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəlmişdir. Strategiyanın uğurla həyata keçirilməsi artıq öz bəhrəsini verməklə, ölkənin həm regionda, həm də beynəlxalq aləmdə mövqelərini gücləndirir.**

İslahatların ən vacib istiqamətlərindən biri vətəndaşların rifahının artırılmasıdır. Təkcə 2024-cü ildə əhalinin real gəlirləri 6,3 faiz artmış, yoxsulluq səviyyəsi isə 2020-ci illə müqayisədə 17 faizdən 11 faizədək azalmışdır.

İqtisadi artım davamlı xarakter almışdır. 2024-cü ilin yekunlarına görə, Özbəkistanın ümumi daxili məhsulu 6,1 faiz artaraq Mərkəzi Asiyanın ən yüksək göstəricilərindən biri olmuşdur. Rəsmi məlumatlara görə, 2024-cü ildə Özbəkistanın əsas kapitalına yönəldilmiş investisiyaların ümumi həcmi 38,36 milyard ABŞ dolları ekvivalentində olmuşdur. Bununla yanaşı, ötən il birbaşa xarici investisiyalar 53,6 faiz artaraq 11,9 milyard ABŞ dolları təşkil etmişdir. İqtisadiyyatın real sektorunda 250 mindən çox yeni iş yeri yaradılmışdır.

Turizmin inkişafına xüsusi diqqət yetirilir. Belə ki, keçən il Özbəkistanı turizm məqsədilə 8,2 milyon xarici vətəndaş ziyarət etmiş, bu isə pandemiyadan sonrakı rekord göstəricidir. Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə Özbəkistana 6,6 milyon xarici turist səfər etmişdir, yəni 24,2 faiz artım qeydə alınmışdır. Həmçinin 2024-cü ildə ölkə vətəndaşları 22,7 milyon daxili turizm səfəri həyata keçirmişlər.

2025-ci ilin əvvəlinə Özbəkistanda ümumi tutumu 161 min çarpayılıq 6,1 mindən çox yerləşmə müəssisəsi (hotellər, hostellər və qonaq evləri) fəaliyyət göstərir. Ölkədə 2,5 mindən çox hotel mövcuddur ki, onların da 18 faizi 4-5 ulduzlu obyektlərdir. Bütün bunlar müstəqil qiymətləndirmələrlə də təsdiqlənir. Ümumdünya Turizm Təşkilatına görə, Özbəkistan Avrasiyada ən sürətlə inkişaf edən turizm sektoruna malik ölkələr siyahısına daxil olmuşdur.

Daxili islahatlar fonunda xarici siyasət vektoru xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi Özbəkistanın praqmatizm və şəffaflığa əsaslanan yeni diplomatiyasının parlaq nümunələrindəndir. 2024-cü ildə Azərbaycan ilə Özbəkistan arasında ticarət dövriyyəsi tarixi maksimum səviyyəyə yüksəlməklə 250,0 milyon dollardan çox olmuşdur. Hökumətlərarası Birgə Komissiya yaradılmış, tekstil sənayesi, kimya və logistika sahələrində birgə layihələr həyata keçirilməkdədir. Azərbaycan biznesi Nəvai və Cizzak vilayətlərində investisiyalara böyük maraq göstərir.

Beləliklə, sürətlə dəyişən geosiyasi şərait və regional həmrəyliyə artan tələbat fonunda Özbəkistan ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq daha möhkəm və məzmunlu xarakter alır. Dövlətlərimiz qarşılıqlı hörmət, praqmatizm və qardaşlıq həmrəyliyi əsasında əməkdaşlığın necə qurula biləcəyini nümayiş etdirir. Üstəlik, ölkələrimiz dayanıqlılıq, açıqlıq və sülhə yönəlmiş regional əməkdaşlığın nümunələrindən birinə çevrilirlər.

Bu ilin iyul ayının əvvəlində Bakıda keçirilən Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclası iki ölkə münasibətlərinin inkişafında yeni mərhələ olmuşdur. Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri qarşılıqlı etimad və strateji dəstəyin mühüm simvoludur.

Özbəkistanın dövlət başçısı xüsusi vurğulamışdır ki, səfər və şura iclası iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının otuzuncu ildönümündə keçirilir. Bu hadisə yalnız simvolik deyil, həm də dərin praktik məna daşıyır. Belə ki, Daşkənd ilə Bakı arasında siyasi, iqtisadi, humanitar və nəqliyyat əlaqələri görünməmiş məzmun almış, ölkəmizin Prezidentinin qeyd etdiyi kimi, "münasibətlərimiz tarix boyunca heç vaxt bugünkü kimi yüksək səviyyədə olmamışdır".

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsi, infrastrukturun inkişafı və investisiya cəlbediciliyinin artırılması strategiyasını ardıcıl həyata keçirməklə Azərbaycanın dayanıqlı iqtisadi inkişafında əsas rol oynamışdır. Bu səylər sayəsində ölkə Avrasiyanın mühüm enerji və logistika mərkəzinə çevrilmişdir. Cənab İlham Əliyevin uzaqgörən xarici siyasət kursu əsas tərəfdaşlarla, o cümlədən Özbəkistanla daha yaxın münasibətlərə xidmət edir.

Azərbaycanın iqtisadi uğurları Özbəkistanla enerji, nəqliyyat, kənd təsərrüfatı və ticarət sahələrində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Bu əlaqələrin dərinləşməsi iki ölkənin iqtisadiyyatlarının vahid məkan daxilində inteqrasiyası üçün yeni imkanlar açır.

Birincisi, Özbəkistan ilə Azərbaycanı ortaq məqsədlər, baxışlar və istəklər birləşdirir. Xalqlarımız hər zaman qardaşlıq və etimad münasibətləri üçün əsas olan tarix, oxşar dəyərlər, dil və mədəniyyətlə bir-birinə bağlıdır.

Bununla əlaqədar olaraq mənim üçün prinsipial əhəmiyyət daşıyan bir məqamı ayrıca vurğulamaq istərdim. Azərbaycanda yüksək səviyyədə təşkil olunmuş beynəlxalq tədbirlərdə iştirakım sayəsində mənə iki dəfə işğaldan azad edilmiş ərazilərə səfər etmək nəsib olmuşdur. Qədim və simvolik Şuşa şəhərinə səfər mənim üçün yaddaqalan hadisə idi. Azərbaycan xalqı üçün dərin tarixi, mədəni və mənəvi əhəmiyyətə malik Şuşa bu gün yenidən mədəniyyət və dirçəliş mərkəzi statusunu bərpa edir. Mən də öz növbəmdə fürsətdən istifadə edərək Azərbaycan xalqının qələbə sevincinə qoşulur, partiyamız adından Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə nəticələnən böyük zəfəri tarixi ədalətin təntənəsi kimi qiymətləndirirəm.

Mən şəxsən yerindəcə əmin oldum ki, cənab İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan keçmiş münaqişə bölgəsi də daxil olmaqla, regionda mehriban qonşuluq, əməkdaşlıq və tərəqqi mühiti yaratmağa çalışır. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpaquruculuq işlərinin və infrastruktur layihələrinin icra sürətini yüksək qiymətləndirməklə xüsusi qeyd etmək istərdim ki, Azərbaycanın ortaya qoyduğu nümunə yaradıcı yanaşma və milli birlik modelidir.

İkincisi, qarşılıqlı siyasi etimad mütəmadi dövlətlərarası əlaqələrlə möhkəmlənir. Son aylarda Xivədə ilk Parlamentlərarası Forum, Əndicanda 60-dan çox sazişin imzalanması ilə nəticələnən Rektorlar Forumu, eləcə də Bakıda Hökumətlərarası Komissiyanın iclası və Regionlar Forumu baş tutmuşdur. Bütün bunlar tərəfdaşlıq proseslərinə mərkəzi hakimiyyətdən regionlara və universitetlərə qədər ən müxtəlif səviyyələrdə cəlb olunmanın göstəricisidir.



Üçüncüsü, iqtisadi gündəm Ali Dövlətlərarası Şuranın ikinci iclasının əsas mövzusu olmuşdur. Təsadüfi deyil ki, 2025-ci il iki ölkə arasında İqtisadi Əməkdaşlıq İli elan edilmişdir.

Hazırda Azərbaycan və Özbəkistanda təxminən 300 birgə müəssisə fəaliyyət göstərir. Birgə investisiya layihələrinin portfeli 4 milyard dollara çatmışdır və bu, yalnız başlanğıcdır. Yaxın illərdə ticarət və investisiya həcmlərinin illik 1 milyard dollara çatdırılması planlaşdırılır.

Sözügedən iclasda sənaye, infrastruktur, kənd təsərrüfatı, turizm, səhiyyə və maliyyə sahələrində layihələri əhatə edən xüsusi Əməkdaşlıq Proqramı təqdim edilmişdir. Eyni zamanda birgə investisiya şirkətinin fəaliyyətinin fəallaşdırılması, Sahibkarlar Şurasının yaradılması, Sənaye və İqtisadi Zonalar Forumunun təşkili təşəbbüsləri dəstəklənmişdir. Bu, tərəflərin yalnız ənənəvi ticarətə deyil, əlavə dəyər zəncirlərinin, yüksək texnologiyalı sektorların və dayanıqlı inkişafın kompleks şəkildə inkişafına sadiqliyini göstərir.

İmzalanan sənədlər arasında "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında 2025-2027-ci illər üzrə sənaye əməkdaşlığı Proqramı", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın gələcək inkişafı üzrə Praktiki Fəaliyyət Planı ("Yol xəritəsi")" və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə kompleks tədbirlərin və layihələrin formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi üzrə Fəaliyyət Planı" mühüm əhəmiyyət kəsb edir.

Görüşün ən önəmli nailiyyətlərindən biri Özbəkistanın Avropaya "yaşıl" elektrik enerjisinin ixracı üzrə birgə layihənin icrasının sürətləndirilməsinə dair razılaşma olmuşdur. Bu layihə Mərkəzi Asiya və Cənubi Qafqazda "yaşıl keçid" strategiyasının daha geniş hissəsi ola, perspektivdə regionun enerji müstəqilliyini və ekoloji təhlükəsizliyini gücləndirə bilər.

Digər önəmli məqam Trans-Xəzər Nəqliyyat Dəhlizində (Orta dəhliz) nəqliyyat əlaqələrinin inkişafıdır. 2025-ci ilin əvvəlindən başlayaraq, Özbəkistan və Azərbaycan yükdaşımalara "e-Permit" elektron icazə sistemi tətbiq etmiş, bunun nəticəsində illik daşımaların həcmi 1 milyon tonu keçmişdir. Orta dəhliz inkişaf etdikcə Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən strateji arteriyaya çevrilir. Gələcəkdə bu marşrut geosiyasi cəhətdən qeyri-sabit ərazilərdən yan keçməklə Şərqlə Qərb arasında logistikanın əsas elementinə çevrilə bilər.

Bundan başqa, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında gəmiçilik və gəmiqayırma sahələrində əməkdaşlıq haqqında Niyyət Protokolu"nun imzalanması da Xəzər dənizində dəniz logistikasının genişləndirilməsi üçün yeni imkanlar açır.

Humanitar sahədə imzalanan sənədlər göstərir ki, Daşkənd və Bakı arasındakı strateji tərəfdaşlıq yalnız praqmatik maraqları deyil, həm də dayanıqlı və inklüziv inkişaf məsələlərini əhatə edir. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrası ilə bağlı 2025-2027-ci illər üzrə Tədbirlər Planı" da imzalanmışdır.

Bütün bunlar BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə iki ölkənin səyləri kontekstində xüsusilə vacibdir. Belə olan halda biz ekoloji problemlər, təhsil, sosial dəstəyin də diqqət mərkəzində olduğu sosial siyasətdə regional liderlik nümunəsini görürük.

Mədəni əlaqələr də güclənir. Belə ki, Azərbaycanın "Şirvan" sazçı folklor qrupunun Xivədə keçirilən IV Beynəlxalq Baxşı Sənəti Festivalında "Qran-pri" mükafatını qazanması əlamətdar hadisədir. 2025-ci ildə gənclər və mədəniyyət mübadiləsi sahəsində bir sıra birgə tədbirlər də həyata keçirilir.

Bakıda "Özbəkistan" parkının tikintisinə başlanması və Özbəkistan Respublikası Səfirliyinin yeni binasının açılışı mühüm rəmzi addımlardır. Buna cavab olaraq Özbəkistanda "Azərbaycan" parkının və "Sea Breeze" turizm kompleksinin tikintisinə hazırlıq gedir. Bu təşəbbüslər mədəni və diplomatik dəyərə malikdir, qardaş xalqa hörməti və iki xalqın mənəvi yaxınlığını möhkəmləndirmək istəyini nümayiş etdirir.

Beynəlxalq və regional gündəmdə ölkələrin liderləri həmrəyliyi və beynəlxalq platformalarda bir-birinə dəstəyi gücləndirmək niyyətlərini təsdiqləmişlər. Özbəkistan ardıcıl olaraq bütün münaqişələrin və mübahisəli məsələlərin yalnız sülh yolu ilə, diplomatiya əsasında həllinə tərəfdardır. Azərbaycanın bu yanaşmanı dəstəkləməsi iki ölkənin beynəlxalq təşkilatlarda ortaq səsini gücləndirir.

Müasir dünyada təkcə dövlətlərarası deyil, həm də partiyalararası münasibətlərin xüsusi əhəmiyyət kəsb etdiyi bir dövrdə Özbəkistan və Azərbaycan yetkin, strateji cəhətdən düşünülmüş qardaşlıq münasibətlərinin nümunəsini nümayiş etdirirlər. Bu kontekstdə xüsusi olaraq vurğulamaq istərdik ki, 2022-ci ilin noyabr ayında cənab İlham Əliyevin partiyamızın nümayəndə heyətini qəbul etməsi yüksək dərəcədə rəmzi məna daşıyan bir hadisə idi. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin bu diqqəti UzLiDeP tarixində ən yaddaqalan səhifələrdən biri kimi həkk olunmuşdur.

Şəxsən mənim üçün bu qəbul iki dost ölkə arasında yüksək etimad və qarşılıqlı anlaşmanın növbəti parlaq təsdiqi, həmçinin Azərbaycan tərəfinin Özbəkistanla tərəfdaşlığın inkişafına xüsusi diqqət yetirməsinin sübutu oldu. Azərbaycan dövlətinin lideri Yeni Azərbaycan Partiyası ilə UzLiDeP arasında qarşılıqlı fəaliyyətin yüksək səmərəliliyini vurğulayaraq, qarşılıqlı səfərlərin davam etdirilməsi, dialoqun dərinləşdirilməsi, əməkdaşlıq platformalarının genişləndirilməsi və siyasi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd etdi.

İki ölkə liderlərinin siyasi iradəsinin bariz nəticəsi 2024-cü ildə Azərbaycanda böyük bir sənədin - Yeni Azərbaycan Partiyası ilə Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalanması oldu. Bu sənədin imzalanması əldə olunmuş razılaşmaları möhkəmləndirməklə yanaşı, bərabərlik, qarşılıqlı dəstək və ortaq hədəflərə əsaslanan partiyalararası əməkdaşlığın yeni mərhələsinə start verdi. Bu sənəd "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"nin müddəalarının həyata keçirilməsinin bir nümunəsinə çevrildi.

Bu gün sözügedən memorandum çərçivəsində nümayəndə heyətlərinin qarşılıqlı səfərləri uğurla həyata keçirilir, təşkilati-ideoloji xarakterli aktual məsələlər ətrafında partiyalararası müzakirələr, partiya quruculuğu və seçicilərlə iş sahəsində qabaqcıl təcrübə mübadiləsi aparılır.

Beləliklə, YAP ilə UzLiDeP arasında partiyalararası əlaqələr Azərbaycan-Özbəkistan strateji dialoqunun dərinləşməsi üçün mühüm mexanizmə çevrilir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə xidmət edir, bütövlükdə, regional sabitlik, inkişaf və tərəqqiyə dəyərli töhfə verir.

Bu, açıq şəkildə göstərir ki, ölkə daxilində aparılan islahatlar onun beynəlxalq nüfuzu ilə birbaşa bağlıdır. Partiyalarımız institutları inkişaf etdirməklə, iqtisadiyyatı gücləndirməklə və humanitar əlaqələri genişləndirməklə nəinki daxili problemləri həll edir, həm də mehriban qonşuluq və regional sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verirlər. Bu baxımdan imzalanmış memorandum sadəcə bir sənəd deyil, həm də Özbəkistan ilə Azərbaycan arasında strateji əlaqələr fonunda praktik bir yol nümunəsinə çevrilmiş, öz səmərəliliyini və həyati əhəmiyyətini nümayiş etdirmişdir.

***Aktam XAİTOV,***
***Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri***

# Tarixi əməkdaşlığın yeni mərhələsi

2025-ci il avqustun 22-də Prezident İlham Əliyev Türkmənistana işgüzar səfər edib. Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə reallaşan səfər iki dövlətin dostluq və qardaşlıq əlaqələrinin növbəti təcəssümü oldu.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Türkmən xalqları əsrlər boyu ortaq tarixi köklərə, zəngin mədəniyyətə, oxşar adət-ənənələrə, dil və mənəvi dəyərlərə sahib olublar. İki xalq arasındakı dərin tarixi bağlar təkcə dil və mədəni yaxınlıqla məhdudlaşmır, həm də qardaşlıq münasibətləri, qarşılıqlı hörmət və dostluq ənənələri ilə möhkəmlənir. "Qədimdən Xəzər dənizinin iki sahilində yaşayan bu xalqlar eyni mədəni mühitin daşıyıcıları olub. Ortaq türk kimliyi həm milli yaddaşda, həm də gələcək hədəflərdə xüsusi yer tutur. Bu gün Azərbaycan-Türkmənistan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xalqlarımızın qardaşlıq bağlarının təbii nəticəsi, ortaq tariximizin yeni mərhələdə davamıdır", - deyə o bildirib.



Səfər çərçivəsində Türkmənistan, Azərbaycan və Özbəkistan liderlərinin iştirakı ilə üçtərəfli yüksəksəviyyəli görüşün keçirildiyini xatırladan deputat Prezident İlham Əliyevin türk dünyasında mövcud mədəni və siyasi yaxınlığı xüsusi vurğuladığını, görüşü "tarixi əməkdaşlığın yeni mərhələsi" kimi dəyərləndirdiyini diqqətə çəkdi.

Onun sözlərinə görə, üçtərəfli formatda əməkdaşlıq Mərkəzi Asiya üçün yeni səhifədir: "Azərbaycan qazandığı böyük beynəlxalq nüfuz və regionda yaratdığı yeni reallıqlarla artıq "Mərkəzi Asiya+Cənubi Qafqaz" formatlarının vahid şəkildə təqdim olunması kimi xarakterizə olunur. Azərbaycan ilə Türkmənistan arasında qardaşlıq və mədəni yaxınlığın yeni dövrü başlayır. Füzuli və Arxadağ şəhərləri arasında qurulan qardaşlıq əlaqələri, habelə Türkmənistanın Füzulidə məscid inşa etmək təşəbbüsü bunun bariz nümunəsidir. Məscidin azad olunmuş ərazilərimizdə inşası isə qardaş ölkənin yenidənqurma işlərinə dəstəyini ifadə edir".

P.Vəliyeva qeyd edib ki, ikitərəfli əməkdaşlığın əsas istiqaməti nəqliyyat sektorudur. Hər üç ölkə Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində əlaqələri genişləndirmək barədə razılığa gəliblər. Xüsusən, Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanları nəzərdən keçirilib. Prezident İlham Əliyev bu istiqamətdə Türkmənistan və Özbəkistanla əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edib. Görüş zamanı enerji sahəsi üzrə də ciddi müzakirələr aparılıb, SOCAR-ın Türkmənistanın qaz və neft sektorunda əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

Deputat sonda qeyd edib ki, Azərbaycan-Türkmənistan dostluğu gələcəkdə daha da möhkəmlənəcək, qardaşlıq münasibətlər yeni nailiyyətlərə yol açacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *"Hürriyet" qəzeti:* Dünya birliyinin diqqəti Zəngəzur dəhlizinə yönəlib

Türkiyənin "Hürriyet" nəşri Naxçıvan Muxtar Respublikasından hazırladığı reportajda oxucuları Zəngəzur dəhlizinin keçəcəyi ərazilərdəki vəziyyətlə tanış edib.

AZƏRTAC xəbər verir ki, qəzetin müxbiri Musa Kesler Ordubad rayonunun Kotam kəndində - muxtariyyətin Ermənistan və İranla sərhəd qovşağının yerləşdiyi son yaşayış məntəqəsində olub.




Müxbir yazır: "Sovet dövründə qatarlar Bakıdan Meğriyə, oradan da Kotamdan keçərək Naxçıvana hərəkət edirdi. Tunellər və relslər qorunub saxlanılıb, lakin burada modern infrastrukturun qurulması işləri tələb olunur, əks halda paralel yeni yolun tikintisinə ehtiyac yaranacaq". Reportajda qeyd olunur ki, hazırda dünya birliyinin diqqəti Zəngəzur dəhlizinə yönəlib.

Türkiyəli jurnalist Ordubad sakinləri ilə söhbət edib, Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidələri ziyarət edib, burada Türkiyə və Azərbaycanın bayraqlarının dalğalandığını vurğulayıb.



# Azərbaycanın xarici siyasətinin uğurları

## Mənəvi bağlar və qarşılıqlı maraqlar üzərində formalaşan strateji əməkdaşlıq

**Türkmənbaşı şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin yüksəksəviyyəli görüşü son aylar ərzində üç dövlətin yerləşdiyi bölgədə baş verən proseslərin məntiqi nəticəsidir. Hər üç ölkə qlobal transmilli logistika layihəsinin - Orta dəhlizin üzərində yerləşir və onun həlledici bəndlərini təşkil edirlər. Çinin qabaqcıl texnologiyalar istehsal edən bazarlarından Qərbə - Avropaya doğru uzanan ən qısa və müddət baxımından optimal marşrut olan bu xətt dörd qardaş türk dövlətinin ərazisindən keçir.**



Çindən Qırğızıstana, oradan isə Özbəkistan, Türkmənistan, Xəzər dənizi və Azərbaycandan keçərək şaxələnəcək strateji ticarət və yükdaşıma xətti bu coğrafiyanın siyasi və iqtisadi həyatında həlledici rol oynayacaq. Belə miqyaslı bir layihənin doğurduğu həlli vacib məsələlərin çözümü dövlət başçılarının Zirvə görüşünü labüd edirdi.

### Azərbaycanın yaratdığı yeni reallıq və qlobal ticarət marşrutu

Avazada təşkil edilən liderlərin Zirvə görüşünə hazırlıq prosesi son günlərin və ayların işi deyil. Dövlət başçılarının qarşılıqlı səfərləri və intensiv təmasları zamanı belə bir görüşün baş tutması üçün əlverişli zəmin formalaşmışdı. 2020-ci ilin Vətən müharibəsindəki qələbəmiz təkcə Cənubi Qafqaz deyil, daha geniş anlamda Orta Asiya və Xəzər hövzəsinin iqtisadi və siyasi həyatında sözün müsbət mənasında çevrilişə səbəb olub. Azərbaycanın tarixi qələbəsi ilə bu böyük və strateji coğrafiyanın təhlükəsizlik arxitekturasına baxış da dəyişilib. Dövlətimizin ərazi bütövlüyünü təmin etməsi Şərq-Qərb qlobal ticarət prosesinin şaxələnməsinə yeni imkanlar yaradıb ki, bu da ölkələrimizin iqtisadi həyatına birbaşa və müsbət təsir edəcək faktora çevrilib.

Əgər logistika marşrutlarının şaxələnməsindən söhbət gedirsə, bu, şübhəsiz ki, yükdaşıma prosesinin həcminin daha da artması potensialının mövcud olması deməkdir. Avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin yekun sülh sazişi istiqamətində mühüm addım atmaları və Zəngəzur dəhlizinin gələcəkdə ABŞ-nin vasitəçiliyi və iştirakı ilə faliyyətinə dair razılığın əldə olunması Orta dəhlizin qarşısında olan sonuncu maneənin də aradan qaldırılması anlamına gəlir. Bölgəmizdə baş verən bu kimi hadisələr qardaş türk dövlətlərinin liderlərinin qlobal prosesdən irəli gələn təxirəsalınmaz məsələlərin həllinə impuls vermək üçün bir araya gəlmələrini vacib edirdi. Vaşinqton görüşü və Zəngəzur dəhlizinin fəaliyyəti ilə bağlı bütün maneələrin aradan qaldırılması qardaş türk dövlətləri tərəfindən də müsbət qiymətləndirilir. Yüksəksəviyyəli görüşün yekunlarına dair mətbuata birgə bəyanatın verilməsi mərasimində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Cənubi Qafqazdakı sülh prosesinin üzərində dayanması bunun əyani sübutudur: "Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi və qardaş Azərbaycan xalqını tarixi hadisə - Vaşinqton şəhərində Ermənistanla Birgə Bəyannamənin imzalanması münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu, igid və mətanətli Azərbaycan xalqının ümdə səylərinin həyata keçirilməsinin parlaq təzahürüdür. Hesab edirik ki, Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar olması iqtisadiyyat, nəqliyyat, energetika, humanitar sahələrdə əməkdaşlığımızın böyük potensialının tam şəkildə açılmasına imkan verəcək".

### Zəngin imkanlar və dinamik gündəm

Üç dövlət başçısının səyləri ilə sözügedən beynəlxalq ticarət və logistika marşrutunun fəaliyyətinin intensivləşməsinə yönəlmiş proses bir sıra vacib məqamların həllini aktual edir. Milli nəqliyyat sistemlərinin inteqrasiyasının dərinləşdirilməsi məqsədilə regionumuzda fəaliyyətdə olan və perspektivli marşrutların birləşdirilməsi, tarif siyasəti və beynəlxalq bazarlara çıxış zamanı biznes üçün əlverişli şəraitin yaradılması, logistika infrastrukturunun inkişafı layihələri üzərində birgə iş aparılması və Xəzər dənizi vasitəsilə bərə daşımaları kimi amillər ölkələrimiz arasındakı müzakirələrin genişliyini və gündəmin zənginliyini sübut edir. Avazada təşkil edilmiş Zirvə görüşü məhz bu kimi faktorların çözülməsinə həsr olunmuşdu.

Cənubi Qafqazda bərqərar olmuş siyasi sabitlik və iqtisadi yüksəliş perspektivləri, eyni zamanda Rusiya-Ukrayna müharibəsi sayəsində şimaldan keçən ənənəvi marşrutun iflic vəziyyətinə düşməsi sülh və sabitlik coğrafiyasına çevrilən bölgəmizin logistik imkanlarını artırır. Bu gün Orta dəhliz dünya iqtisadiyyatı və qlobal ticarət prosesinin əsas trendlərindən birinə çevrilib. Bu yükdaşıma marşrutunun qarşıdakı illərdə mühüm logistika arteriyasına çevrilməsi üçün ciddi əsaslar var.

Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov mətbuata verdiyi bəyanatda xüsusi vurğuladı ki, ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri də nəqliyyat sektorudur: "Biz Böyük İpək yolunun bərpası üçün Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində əlaqələri genişləndirmək barədə razılığa gəldik. Xüsusən Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanlarını nəzərdən keçirdik".

Orta dəhlizin ümumdünya logistika prosesindəki rolu və çəkisinin artımı meydana yeni perspektivli əməkdaşlıq sahələrini çıxarır və bunlardan ən vacibi çox güman ki, ölkələrimizin enerji daşıyıcılarının hasilatı və nəqli sahəsindəki əməkdaşlığını daha da aktual edir. Azərbaycan və Türkmənistan iri karbohidrogen yataqlarına malikdirlər və illərdir Avropa bazarlarına neft və mavi yanacaq ixrac edirlər. Azərbaycanın bu proses üçün müasir və əlverişli infrastrukturu mövcuddur. Söhbət Azərbaycandan Avropa bazarlarına neft və qaz nəql edən kəmərlərdən gedir. Orta dəhliz istiqaməti üzrə proseslərin intensivləşməsi və həcmlərin artması ticarətlə yanaşı, enerji daşıyıcıları infrastrukturunun da genişlənməsini tələb edir. Türkmənbaşıdakı görüşün mühüm bir hissəsi də məhz bu mövzuya həsr olunmuşdu.

Üç ölkənin energetika sahəsində əməkdaşlıq perspektivlərinin nəzərdən keçirilməsi, karbohidrogen yataqlarının işlənməsi və hasil olunan elektrik enerjisinin ixracı üzrə perspektiv layihələr, əmtəə dövriyyəsinin böyük həcmdə artırılması və sənaye kooperasiyası miqyaslarının genişləndirilməsi danışıqların gündəliyində əsas yer tuturdu. Yeri gəlmişkən, əgər Orta dəhlizə enerji daşıyıcılarının nəqli müstəvisindən baxırıqsa, alternativ enerji mənbələri və yaxud ekoloji cəhətdən təmiz - günəş və küləkdən əldə edilən enerji amilini də unutmamalıyıq. Azərbaycanla yanaşı, Özbəkistan da bu sahəyə iri yatırımlar edir və əldə edilən məhsulun Avropaya ixracı istiqamətində dövlətlərimiz arasında sıx işbirliyi var. Azərbaycanın təşəbbüsü ilə Gürcüstan və Qara dənizin dibi ilə Rumıniya və Macarıstana qədər uzanacaq xüsusi kabelin inşası prosesinə artıq start verilib. Bu xətlə təkcə Azərbaycan deyil, qardaş türk dövlətlərinin də istehsal etdikləri "yaşıl enerji" Avropaya nəql edilə bilər.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında xüsusi vurğuladı: "Müzakirə olunan məsələlər burada artıq qeyd olundu, onları təkrar etmək istəmirəm. Amma bir şeyi deyə bilərəm, artıq müvafiq dövlət qurumlarına göstərişlər verildi ki, üçtərəfli əməkdaşlıq formatı yaradılsın və bizim növbəti görüşümüzə konkret istiqamətlər üzrə təkliflər verilsin. Bu göstərişlər verildi. Yenə də deyirəm, burada səslənmişdi - nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələri və mədəni əlaqələr. Qaldı ki, bütün bu göstərişlərin vaxtında yerinə yetirilməsinə, mənim buna da şübhəm yoxdur".

Görüşdə o da qeyd olundu ki, əməkdaşlığın mühüm sahəsi mədəni-humanitar əlaqələrdir. Onların inkişafı prioritet əhəmiyyət daşıyır. Bu kontekstdə əməkdaşlığın mühüm tərkib hissəsi qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, təhsil, mədəniyyət, turizm, mədəni dəyərlərimizin - xalçaçılıq, atçılıq, tətbiqi sənətin inkişafı sahələrində tədbirlərin keçirilməsidir. Bu istiqamətdə mədəni mübadilə və əlaqələrin inkişafı üçün bütün imkanlar mövcuddur.

### Azərbaycan-Türkmənistan əlaqələrinin keyfiyyətcə yeni mərhələsi

Eyni regionda yerləşən və zəngin təbii ehtiyatlara, əlverişli coğrafi imkanlara malik dövlətlər arasında sıx əməkdaşlıq mühitinin olması həm vacibdir, həm də zaman, geosiyasi maraqlar və gələcəyə birgə baxış nöqteyi-nəzərindən labüddür. Ancaq bizim daha bir üstünlüyümüz ondan ibarətdir ki, dövlətlərimizi və xalqlarımızı dərin tarixi və mənəvi köklər bir-birinə bağlayır. Bu amilin çəkisi olduqca ağır və məsuliyyətlidir, çünki mənəvi amil hər zaman siyasət, iqtisadiyyat və ticarətdən üstün olub. Qardaşlıq faktoru dövlət başçılarımızın ən mürəkkəb məsələlərdə belə tez çıxış yolunu tapmalarını və ümumi konsensusa gəlmələrini mümkün edir.

Bu istiqamətdə qarşılıqlı səfərlər, keçirilən görüşlər, ortaq problemlərin müzakirəsi, əldə edilən uğurlara həmrəyliyin nümayiş etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqı son 4-5 ildə qardaş türk dövlətləri tərəfindən belə impulsların artdığını görür və bununla qürrələnir. Vətən müharibəsindəki tarixi qələbəmizin qardaş xalqlar, o cümlədən Özbəkistan və Türkmənistan tərəfindən də ruh yüksəkliyi ilə qarşılanması Bakıda olduqca müsbət dəyərləndirilir.

Bu kontekstdə Azərbaycan-Türkmənistan-Özbəkistan münasibətləri, əlaqələrin genişlənməsi istiqamətində son illərdə atılmış addımların böyük əhəmiyyəti var. Ölkələrimiz arasında iqtisadiyyat, siyasət, təhlükəsizlik və ümumilikdə, dünyada baş verən proseslərə müştərək yanaşma istiqamətində ciddi əməkdaşlıq perspektivləri mövcuddur. Dövlət rəhbərlərinin ölkələrimizə etdikləri səfərlər bu kimi işbirliyi potensialını daha da zənginləşdirir.

Dövlətlərimiz arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub və həmin tarixdən günümüzədək qarşılıqlı əməkdaşlıq əlaqələrimiz addım-addım irəliyə gedib. Azərbaycan ilə Türkmənistan arasında yüksəksəviyyəli siyasi dialoq qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə söykənir. Ölkə rəhbərlərinin bir-birinə hörməti, aktual siyasi məsələlərə koordinasiyalı yanaşmalar münasibətlərimizin təməlini təşkil edir. Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun əlaqələrimizi yüksək qiymətləndirməsi aramızdakı bağların əhəmiyyətinin təzahürüdür. Görüşdə bildirildi ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdirlər. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır. Bu, bizə ikitərəfli əməkdaşlığın bütün məsələləri üzrə düzgün və vaxtında qərarlar verməyə, əldə olunmuş razılaşmaların həyata keçirilməsini təmin etməyə imkan yaradır.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun bu ilin iyul ayında Azərbaycana səfəri və bu çərçivədə işğaldan azad edilmiş ərazilərimizə baş çəkməsi, mövcud reallıqla, dövlətimizin bu bölgəni yenidənqurma və əhalimizin geridönüşü üçün həyata keçirdiyi miqyaslı işlərlə yaxından tanış olması Bakı-Aşqabad münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidində mühüm əhəmiyyət kəsb edən hadisə oldu. Avazadakı Zirvə toplantısında Türkmənistan dövlətinin Azərbaycana hədiyyə olaraq Füzuli şəhərində məscid inşa etmək qərarının bəyan edilməsi isə qardaşlığımızı dərinləşdirən və möhkəmlədən növbəti xoş məramın göstəricisi idi. Prezident İlham Əliyev iki ölkə arasında olan münasibətləri belə qiymətləndirdi: "Mənim dəvətimlə Qurbanqulu Məlikquliyeviç iyul ayında Azərbaycanda səfərdə idi. Biz iki gün ərzində həm Bakıda, həm də Qarabağ bölgəsində bərabər olmuşuq və bir çox məsələləri müzakirə etmişik. Mövqelərimiz də üst-üstə düşür. Əsas məsələ odur ki, Türkmənistan və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da çiyin-çiyinə irəliyə gedəcək, bütün məsələləri dostluq, qardaşlıq şəraitində həll edəcək və nəinki ikitərəfli, çoxtərəfli əməkdaşlıq imkanlarını da genişləndirəcək.

Füzulidə olarkən Qurbanqulu Məlikquliyeviç burada Türkmənistanın hədiyyəsi olan məscidin tikintisi ilə bağlı təklif irəli sürdü. Mən də bu təklifi minnətdarlıqla qəbul etdim. Cəmi bir ay keçməsinə baxmayaraq, artıq məscidin memarlıq təsviri hazırdır və yaxın gələcəkdə təməli də qoyulacaqdır. Bu, türkmən xalqının, Türkmənistan Liderinin Azərbaycan xalqına, Azərbaycana olan dəstəyinin nümunəsidir, bizim qardaşlığımızın təcəssümüdür".

Avazada Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin birgə görüşü zamanın və geosiyasi konyukturun tələbi olan təxirəsalınmaz siyasi, iqtisadi, ticarət və təhlükəsizlik məsələlərinin həlli ilə yanaşı, qardaş dövlətlər arasında əlaqələrin də intensivləşməsinə daha bir təkan olacaq. Qloballaşan və gündən-günə müxtəlif müharibələr, iqtisadi təlatümlər baxımından daha da təhlükəli və qeyri-sabit olan dünyada türk dövlətlərinin bir yerdə olmaları, ən müxtəlif məsələlərə dair vahid platformadan çıxış etmələri olduqca vacibdir. Dövlət başçıları arasında səmimi və mehriban münasibətlər, dinamik dialoq mühiti bu birliyin ən mühüm şərtidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

# Bakıdan gələn güc

## Bəs Avropanın enerji xilası, belə demək mümkündürsə, strateji tərəfdaş hesab etmədiyi bir ölkədən asılıdırsa?!

Avropa İttifaqı Rusiya enerjisindən asılılığını azaltmağa və "yaşıl keçid"i sürətləndirməyə çalışdıqca, bir regional tərəfdaşın rolu getdikcə önəmli olur. Bu tərəfdaş isə Azərbaycandır.

Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan bu gün həm fosil yanacaqlar, həm də bərpaolunan enerji mənbələrinin əsas təchizatçılarından birinə çevrilib. Buna baxmayaraq, Brüssel Bakı ilə uzunmüddətli strateji tərəfdaş kimi deyil, daha çox qısamüddətli həll yolu kimi davranmağa davam edir. Bu, Avropanın artıq özünün də dözə bilməyəcəyi bir səhvdir.

### Etibarlı enerji tərəfdaşı

Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Avropa İttifaqı Rusiya qazından diversifikasiyada mühüm irəliləyiş əldə edib. Buna baxmayaraq, təchizatda zəifliklər hələ də qalır, xüsusən də Mərkəzi və Cənub-Şərqi Avropada. Məhz burada Azərbaycan önə çıxır.




"Cənub qaz dəhlizi" vasitəsilə Bakı artıq İtaliya, Yunanıstan, Macarıstan və Slovakiya daxil olmaqla 10-dan çox Avropa ölkəsinə təbii qaz ixrac edir. Bu axınlar enerji sabitliyinin təmin olunmasında həyati əhəmiyyət kəsb edir. 2022-ci ildə Avropa İttifaqı Azərbaycanla 2027-ci ilə qədər qaz idxalını ikiqat artırmaq üçün memorandum imzalayıb. Lakin TAP və TANAP-ın genişləndirilməsi layihələrinin maliyyələşdirilməsindəki gecikmələr Azərbaycanı ixrac hədəflərini aşağı salmağa məcbur edib.

Əgər Avropa enerji davamlılığı yaratmaqda ciddi olarsa, uzunmüddətli təchizat marşrutlarını təmin etmək və Xəzər qazını Avropa şəbəkəsinə birləşdirəcək infrastruktur layihələrinə investisiya qoymaq üçün daha sürətli hərəkət etməlidir.

### "Yaşıl enerji"yə dönüş

Azərbaycanın rolu yalnız fosil yanacaqlarla məhdudlaşmır. 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində ölkə bərpaolunan enerji mərkəzi olma vizyonunu təqdim etdi. Məlumat verildi ki, Azərbaycanda 27 GW-dan çox quru külək və günəş gücü, habelə təxminən 150 GW dənizüstü potensial mövcuddur. Ölkəmiz Masdar, ACWA Power və BP daxil olmaqla beynəlxalq tərəfdaşlarla birlikdə "yaşıl enerji" sektorunu inkişaf etdirmək üzərində çalışır.

Ən ambisiyalı təkliflərdən biri Xəzər-Avropa "Yaşıl Enerji" Dəhlizidir. Bu dənizaltı ötürücü xətt Azərbaycanın elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniya və Macarıstana çatdıracaq. Realizə olunduqda bu dəhliz Xəzər "yaşıl enerji"sinin Avropaya ilk böyük miqyaslı ötürücüsü olacaq və regional əməkdaşlıq üçün mühüm mərhələ təşkil edəcək.

Lakin fosil yanacaq sahəsində olduğu kimi, Azərbaycanın bərpaolunan enerji ambisiyaları da Brüsseldən aydın siyasi dəstək və investisiya tələb edir. Layihə hazırda Avropa İttifaqının "Qlobal Qapı" strategiyasına daxil edilsə də, icra baxımından hələ ciddi irəliləyiş müşahidə olunmayıb.

### Real siyasi və regional balans

Azərbaycan-Avropa İttifaqı münasibətləri hələ də əsasən tranzaksiya xarakteri daşıyır. Bakı Brüssellə əməkdaşlığını Rusiya, Türkiyə və İranla yaxın əlaqələrlə balanslaşdırır. Buna baxmayaraq, sabitlik problemi olan bir regionda Azərbaycan enerji və diplomatiya sahəsində həm etibarlılıq, həm də ambisiya nümayiş etdirir.

Avropa İttifaqı uzun müddətdir xarici enerji siyasətində praqmatik tərəfdaşlıqları qəbul edir - Əlcəzair, Qətər və ya Qazaxıstanla olduğu kimi. İndi əsas məsələ eyni məntiqi Azərbaycana tətbiq və paralel olaraq birgə layihələrdə idarəetmə standartlarını və şəffaflığı təşviq etməkdir.

Brüssel həmçinin strateji istiqamətin dəyişməsinin riskini də nəzərə almalıdır. Enerji əməkdaşlığında gecikmələr və qarışıq siqnallar Azərbaycanı Çin, Körfəz ölkələri və ya Xəzər bölgəsində təsirini artırmaq istəyən digər tərəfdaşlarla əlaqələri dərinləşdirməyə təşviq edə bilər.

Əlbəttə, məsuliyyət yalnız Avropa İttifaqına aid deyil. Azərbaycanın uzunmüddətli etibarlı enerji tərəfdaşı olmaq üçün tənzimləyici çərçivələrini təkmilləşdirməsi, investor inamını təmin etməsi və iqlim öhdəliklərini beynəlxalq standartlarla uyğunlaşdırması da vacibdir. COP29 Bakıya qlobal platforma təqdim etdi, indi isə bu platformadan konkret tədbirlərlə istifadə edilməlidir.

### Qurulması vacib olan tərəfdaşlıq

Avropa İttifaqı Azərbaycanı artıq ehtiyat təchizatçı kimi görməməlidir. Azərbaycan həm enerji təhlükəsizliyi, həm də iqlim tərəqqisini təmin edə biləcək tərəfdaşdır, təbii ki, Brüssel bu münasibətə strateji niyyətlə yanaşarsa. Bu, "Cənub qaz dəhlizi"nin, xüsusilə TAP və TANAP-ın genişləndirilməsinə investisiya qoymaq, "Qlobal qapı" çərçivəsində Xəzər-Avropa "Yaşıl Enerji" Dəhlizini sürətləndirmək, qaz və bərpaolunan enerji üçün uzunmüddətli müqavilələr və maliyyələşdirmə çərçivələri təklif etmək, davamlı, yüksəksəviyyəli siyasi dialoqa cəlb edilmək deməkdir.

Məsələ getdikcə aktuallaşır. Əgər Avropa İttifaqı iqlim hədəflərinə çatmaq, Şərq tərəfdaşlıqlarını gücləndirmək və təchizatın sabitliyini təmin etmək istəyirsə, Azərbaycan bu istəyin reallaşmasının bir hissəsi olmalıdır - sadəcə rahatlıq üçün deyil, Avropanın enerji gələcəyinin təməl daşı kimi.

***Elxan NURİYEV,***
***siyasi elmlər doktoru***

***Redaksiyadan:*** *Müəllif tərəfindən tərcümə olunan bu məqalə öncə Londondakı Strateji Yenidənqurma şirkəti "Reinvantage"in rəsmi saytında, sonra isə Norveçin beynəlxalq şəbəkəyə malik aparıcı qlobal geosiyasət qəzetlərindən olan "GEOPOLITIKA"da dərc edilib.*

*Məqalənin müəllifi ABŞ-nin Fulbrayt proqramının (1995-1997) və Almaniyanın Humboldt mükafatının (1999-2000) laureatıdır. Hazırda o, Brüssel Enerji Klubunun qlobal enerji üzrə məsləhətçi-eksperti və Vyanada yerləşən Siyasi Risk və Strateji Məsləhət Xidmətində baş ekspertdir. Xatırladaq ki, E.Nuriyev 2008-2011-ci illərdə Azərbaycan Respublikası Prezidentinin yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində çalışmışdır.*

## 27 Avqust Moldovanın Müstəqillik Günüdür

# Azərbaycan-Moldova əlaqələri strateji tərəfdaşlığa yüksəlib

**Bu**gün "qoca qitə"nin mədəniyyətindən, onun adət-ənənələrindən söhbət düşəndə istər-istəməz gözlərimiz önündə vətəninə, torpağına böyük sayğı və məhəbbət bəsləyən, dünya mədəniyyəti xəzinəsinə özünəməxsus töhfələr verən, həyat eşqi, yaşamaq həvəsi yüksək olan Moldova xalqı canlanır. Avropanın şərqində yerləşən gənc Moldova Respublikasının ərazisi erkən Neolit sivilizasiyasına aid mədəniyyət mərkəzlərindən biri hesab olunur. Bu mənada Moldova zəngin çoxəsrlik tarixə və mədəniyyətə malik bir ölkədir, onun mədəniyyətinin tərkib hissəsi isə bayramları və onlarla bağlı adət-ənənələrdir.



Demək olar ki, hər bir bayram mahnı sədaları altında xalq gəzintiləri, teatr məclisləri və ənənəvi yarmarkalar, xalq festivalları ilə müşayiət edilir. Bu tədbirlər zamanı xarici turistlər folklor, ənənəvi geyimlər, əl işləri və s. ilə tanış olurlar. Həmçinin bir neçə millətin, o cümlədən türklərin də təsiri altında formalaşan ənənəvi Moldova mətbəxi müəyyən orijinallığı, dad zənginliyi və yeməklərin müxtəlifliyi ilə buraya ilk dəfə ayaq basanların zövqünü oxşayır. Bu diyarda turistlərin diqqətini həm də, ilk növbədə, zərif dadı və ətrilə bütün dünyada məşhur olan şərablar cəlb edir. Məlumata görə, yerli sakinlər 7 min il əvvəl üzümçülüklə tanış olmuş və ondan şərab hazırlamışlar. Təsadüfi deyil ki, bu günün özündə də Moldova ərazisinin təxminən 147 min hektarını üzüm bağları tutur.

Hər il avqustun 27-də coşqu və təntənə ilə qeyd olunan Müstəqillik Günü də xalqın əsrlər boyu arzusunda olduğu mühüm bayramdır. Rumıniyanın şərqində və Ukraynanın qərbində yerləşən, dənizə çıxışı olmayan Moldovanın ərazisi nisbətən kiçik, əhalisi az olsa da, Azərbaycanın Avropa siyasətində əhəmiyyətli yerlərdən birini tutur. Moldovanın xarici siyasəti Avropa İttifaqına inteqrasiyaya və Qərb ölkələri ilə əməkdaşlığı gücləndirməyə yönəlib. Bunu onun Aİ-yə namizəd statusu, təhlükəsizlik və müdafiə sahəsində tərəfdaşlıq sazişinin imzalanması sübut edir. Əsas istiqamətlərə Avropa Qonşuluq Siyasəti çərçivəsində Aİ ilə əlaqələrin dərinləşdirilməsi, hibrid təhdidlərlə mübarizə, kibertəhlükəsizlik və təhlükəsizlik sektorunda islahatlar, həmçinin Dnestryanı münaqişənin həlli daxildir.

Azərbaycan kimi Moldova da müstəqillik dönəmində bir sıra problemlərlə üzləşməli olmuşdur. Moldovanın üzləşdiyi problemlərin çoxu Rusiyanın qonşu Ukraynaya qarşı davam edən işğalçılıq müharibəsi və Rusiya tərəfindən onun təhlükəsizliyinə, iqtisadiyyatına və sosial sabitliyinə yaratdığı təhlükə ilə bağlıdır. Ölkə ərazisinin bir hissəsi olan Dnestryanı bölgə hələ də rusiyayönlü separatçıların nəzarəti altındadır.

Son illər Moldova iqtisadiyyatı böyük çətinliklərlə üzləşməli olmuşdur. Əmək qabiliyyətli əhalinin yarıdan çoxu kənd təsərrüfatı sektorunda çalışır. Bu bölmə 2020 və 2022-ci illərdə şiddətli quraqlıqdan ağır zərbə almışdı. Bununla belə, görülən intensiv tədbirlər nəticəsində hazırda Moldova yaşamaq üçün ən rahat ölkələrdən biri sayılır.

2025-ci ilin ortalarına olan məlumata görə, Moldovanın əhalisi 3 milyon nəfərə yaxındır. Əhalinin 93 faizindən çoxu pravoslav olsa da, burada digər dinlərin daşıyıcılarına da hörmətlə yanaşırlar. Bu mənada Azərbaycan kimi, həm də Moldovada multikulturalizm siyasəti yüksək səviyyədə həyata keçirilir.

Moldovanın ümumi daxili məhsulu illik müqayisədə 0,1 faiz artaraq 2024-cü ildə 16,7 milyard avroya çatmışdır. Çoxsaylı qeyri-müəyyənliklər, silahlı münaqişələr, tarif müharibələri - bütün bunlar, təbii ki, Moldovanın iqtisadi vəziyyətinə təsir göstərməyə bilməz. Hazırda Moldova iqtisadiyyatına mənfi təsir edən qeyri-sabit qlobal vəziyyətin nəticələri aradan qaldırılır.

Ukraynada müharibə başlayanda Moldova mineral yanacağın bir hissəsini yenidən ixrac etməyə başladı. İndi buna ehtiyac yoxdur, logistika dəyişib və tədarüklər birbaşa Ukraynaya gedir. İkinci amil kənd təsərrüfatındakı problemlərdir. Ötən il quraqlıq səbəbindən kənd təsərrüfatında ümumi daxili məhsulun həcmi azalıb. Üçüncü səbəb avtomobil sənayesindəki vəziyyətdir. Moldova Avropa istehsal zəncirlərinin bir hissəsidir və bu sektor hazırda çətinliklərlə üzləşir. Bu səbəbdən yerli müəssisələrlə işləyən səhmdarlar daha az sifarişlər alırlar.

Digər tərəfdən, xidmətlərin həcminin, əməkhaqqının, əhalinin müxtəlif gəlir növlərinin artımı, korporativ investisiyaların və kreditləşmənin səviyyəsinin yüksəlməsi iqtisadiyyat üçün müsbət addımlardır. Ardıcıl beş rübdür ki, sahibkarlar öz bizneslərini inkişaf etdirmək üçün investisiyaları artırırlar. Uzunmüddətli investisiya kreditlərinin artımı da avadanlıqların alınmasını və yeni texnologiyaların tətbiqini göstərir.

Ölkədə nominal və real əməkhaqqının artımı davam edir. 2024-cü ildə orta əməkhaqqı 14, cari ilin birinci rübündə isə 2-3 faiz artıb. Yaz şaxtalarına baxmayaraq, bəzi bitkilər üzrə çox yaxşı məhsul, xüsusilə də taxıl məhsulları gözlənilir. Bunlar da bütün kənd təsərrüfatı məhsullarının təxminən 75 faizini təşkil edir. Cari ildə ümumi daxili məhsulun 2 faizədək artımı gözlənilir.

Gələcəyə baxsaq, rəqabət qabiliyyətini artıran və Aİ-yə inteqrasiyanı asanlaşdıran islahatlar sayəsində iqtisadiyyatın tədricən yüksəlişi gözlənilir. İstehlak, artımın əsas aparıcı amili olaraq qalacaq, Moldova Aİ ilə əlaqələrini dərinləşdirdikcə investisiyalar da artacaqdır.

Moldova ərazisində bir sıra faydalı qazıntı yataqları, o cümlədən qrafit, fosforit, seolit, flüorit, barit, yod, brom və bir sıra sənaye metalları - dəmir, qurğuşun, sink və mis də aşkar edilmişdir. Moldovada liqnit, neft və təbii qazın kiçik yataqları da mövcuddur.

Moldova iqtisadiyyatı eyni zamanda enerji böhranı, qazın qiymətinin dəyişkənliyi və idxaldan asılılıq, eləcə də struktur islahatlarına ehtiyac kimi problemlərlə də üzləşir.

Bu problemlərin aradan qaldırılmasında Moldovaya etibarlı tərəfdaşlar lazımdır. Belə tərəfdaşlardan biri Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan Respublikasıdır. Azərbaycan və Moldova arasında ikitərəfli münasibətlər siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edir. 1992-ci il mayın 29-da Azərbaycan ilə Moldova arasında diplomatik münasibətlər qurulmuşdur. 2005-ci ilin martında isə Azərbaycanın Moldovada səfirliyi açılmışdır. 1996-cı ilə qədər iki ölkə arasında münasibətlər zəif templə inkişaf etsə də, sonrakı illərdə qarşılıqlı əməkdaşlığın hüquqi-müqavilə bazası genişlənmiş və ötən dövr ərzində 67 sənəd imzalanmışdır. Bu sənədlər siyasi-diplomatik sahədən tutmuş ticarət-iqtisadi əməkdaşlıq, azad ticarət rejimi, ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların qarşılıqlı təşviqi və qorunması və digər sahələri əhatə edir.

Moldova həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Onların əlaqələri ikitərəfli formatla yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də uğurla davam edir. BMT, ATƏT, GUAM, QDİƏT və digər beynəlxalq platformalarda hər iki dost ölkə bir-birinə qarşılıqlı dəstək nümayiş etdirirlər. Azərbaycan və Moldova Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də əməkdaşlıq edir.

Dövlət və hökumət başçıları səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirilməsi siyasi münasibətlərin inkişafına münbit zəmin yaratmışdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev qarşılıqlı siyasi münasibətlərin yaxşı səviyyədə olduğunu dəfələrlə vurğulamışdır. Moldova Prezidenti Maya Sandunun COP29 konfransında iştirakı iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə bariz nümunədir.

Cari il aprelin 10-da Azərbaycanın Baş naziri Əli Əsədov ilə Bakıda səfərdə olan Moldova Respublikası Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Vladimir Bolea arasında keçirilən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olundu, ticarət, investisiyalar, neft-qaz, "yaşıl enerji", nəqliyyat, kənd təsərrüfatı, humanitar və bir çox digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirildi.

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə 8 nəfərdən ibarət İşçi Qrupu fəaliyyət göstərir. Moldova Respublikası Parlamentində isə Moldova-Azərbaycan parlamentlərarası əlaqələr üzrə 30 nəfərdən ibarət dostluq qrupu yaradılıb. Komissiyalar arasında işgüzar və səmərəli əlaqələr mövcuddur.

Cari il aprelin 11-də Bakıda Azərbaycan ilə Moldova arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclası keçirildi. Qonaqlara ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlar barədə məlumat verildi. Tərəflərin yekdil fikrinə əsasən, aqrar sahədə müasir texnologiyaların transferi, müştərək elmi-tədqiqatların aparılması, mütəxəssislərin hazırlığı və aqrar məhsulların ixracı Azərbaycanla Moldovanın kənd təsərrüfatı sahəsində əməkdaşlığının əsas istiqamətləri kimi dəyərləndirildi. Azərbaycanla Moldova arasında ikitərəfli əməkdaşlığın istiqamətləri, enerji, nəqliyyat, kənd təsərrüfatı, texnologiya transferi, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi, beynəlxalq yükdaşımaları, məhsulların üçüncü ölkələrə ixracı zamanı Orta dəhlizin yaratdığı üstünlüklərdən istifadə və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

İmzalanmış yekun protokolu iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasını, kənd təsərrüfatı, qida təhlükəsizliyi, energetika, nəqliyyat, elmi-texniki və humanitar, sosial, səhiyyə, mədəniyyət, əqli mülkiyyət, ətraf mühit, idman və turizm sahələrində ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərdə tutur. Tərəflər Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 7-ci iclasının gələn il Kişineuda keçirilməsi barədə razılığa gəliblər.

Qarşılıqlı əməkdaşlığın inkişafında hər iki ölkənin müxtəlif dövlət və hökumət qurumları da fəal iştirak edirlər. 2025-ci il aprelin 11-də Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi ilə Moldova Milli Qida Təhlükəsizliyi Agentliyi arasında baytarlıq sahəsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Bu sənəd baytarlıq sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Hər iki tərəfin qənaətinə görə, qarşılıqlı iqtisadi əlaqələrin stimullaşdırılması üçün enerji sektoru ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, turizm və beynəlxalq yük daşımaları perspektivli sahələr hesab olunur. Moldova Azərbaycanın Avropaya açılan pəncərəsi olduğu kimi, Azərbaycan da Moldovanın Yaxın və Orta Şərqə, Mərkəzi və Cənub-Şərqi Asiyaya açılan qapısıdır.

Azərbaycanın neft-qaz sektoru Moldova üçün strateji əhəmiyyət daşıyır. Moldova Azərbaycanın təbii qaz imkanlarından faydalanmağa maraq göstərir. Son illər Şərqi Avropada hərbi-siyasi vəziyyətə olduqca mənfi təsir göstərən qanlı Rusiya-Ukrayna müharibəsinin getdiyi bir şəraitdə enerji daşıyıcılarının nəqli, logistika infrastrukturları üçün böyük təhlükə yaranmışdır. Dost Moldova Respublikası belə bir şəraitdə qardaş Azərbaycanın enerji və logistika imkanlarından faydalana bilər.

Qətiyyətlə demək olar ki, Azərbaycan son illər Avrasiya regionunun etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Ölkəmizdə müasir tələblərə cavab verən dəniz limanları, dəmir yolu rabitəsi, hava limanları və dünya standartlarına cavab verən avtomobil yolları, Şərq və Qərbi, Cənubla Şimalı birləşdirən müasir nəqliyyat infrastrukturları mövcuddur. Onlardan səmərəli istifadə olunması ticarət əlaqələrini artırmaq üçün böyük üstünlüklər verir. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizlərinin kəsişdiyi məntəqədə yerləşir ki, bu da Moldova ilə əlaqələrin inkişafına əlavə stimul verir.

İki ölkə arasında gediş-gəlişin artması hava rabitəsinin genişlənməsini gündəmə gətirib. Tərəflər iki ölkə arasında böyük turizm potensialının olduğunu nəzərə alaraq birbaşa uçuşların sayının artırılması barədə razılığa gəliblər. Artan tələbatdan irəli gələrək cari ilin aprel ayından etibarən Bakı-Kişineu-Bakı reyslərinin sayı həftədə 5 dəfəyə çatdırılıb. Bu da iki dövlət və xalq arasında əlaqələrin intensivliyinin artırılmasına, turizmin inkişafına müsbət təsir göstərmişdir.

Qarşılıqlı səmərəli biznes-forumların keçirilməsi iqtisadi tərəfdaşlığın güclənməsinə təkan verən amillərdir. Cari il aprelin 11-də Bakıda Azərbaycan-Moldova biznes-forumu keçirildi. Forum iki ölkədəki biznes mühiti, investisiya imkanları və biznes əlaqələrinin qurulması haqqında tərəfləri məlumatlandırmaq üçün yaxşı fürsət oldu.

Hazırda Azərbaycan Moldovaya əsasən, enerji daşıyıcıları, neft və neft məhsulları, kimyəvi məhsullar, ağac, meyvə və tərəvəz ixrac edir. Moldova isə Azərbaycana, əsasən, kənd təsərrüfatı məhsulları (konservlər, meyvə şirələri, şərab) və digər istehlak mallarını göndərir. Moldova ilə Azərbaycan arasında ikitərəfli ticarətin dəyəri 12 milyon dollardır. Bu gün Azərbaycanda qeydiyyatdan keçmiş Moldova kapitallı 20 şirkət nəqliyyat, sənaye, tikinti, ticarət və xidmət sahələrində fəaliyyət göstərir.

İki ölkə arasında mədəni əlaqələr davamlı olaraq inkişaf edir. Xalqların bir-birini daha yaxından tanıması üçün mədəni əlaqələrin əhəmiyyəti böyükdür. Mədəniyyət günlərinin, müxtəlif sərgi və yarmarkaların təşkili, poeziya gecələrinin keçirilməsi bu əlaqələri daha məzmunlu edir. Məsələn, 2024-cü ilin dekabrında Moldovanın paytaxtı Kişineuda "Xarıbülbül" Azərbaycan-Moldova Dostluq Xiyabanı salınması da əlamətdar hadisə oldu. Bu həm də 44 günlük Vətən müharibəsində Moldovanın Azərbaycanın yanında olduğunun əyani təzahürü idi. Kişineudakı xiyabana "Xarıbülbül" Azərbaycan-Moldova Dostluq Xiyabanı lövhəsi vuruldu. Bu xiyaban Azərbaycan və Moldova xalqlarının dostluğunu əbədiləşdirəcək və Kişineunun ekoloji rifahına töhfə verəcək. Xiyabanda rəmzi olaraq 44 ağac əkilmişdir.

Hər iki ölkədə diaspora təşkilatları fəaliyyət göstərir. Azərbaycanda azsaylı Moldova diasporu var. Onların sayı təqribən 500 nəfərdir. Moldovadakı Azərbaycan diasporu isə 5 min nəfərdən çox soydaşımızı əhatə edir. Moldova Azərbaycanlıları Konqresi də soydaşlarımızın milli ənənələrinin, dilinin və mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində işlər görür.

Göründüyü kimi, Azərbaycan ilə Moldova arasında mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu tərəfdaşlıq təbii olaraq hər iki dost xalqın iqtisadi tərəqqisini və dinc həyatını təmin etməklə yanaşı, regional və beynəlxalq proseslərə də müsbət töhfə verir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Yeni hədəflərə doğru

## Azərbaycan, Özbəkistan və Türkmənistan arasındakı əməkdaşlıq formatı əlaqələri genişləndirmək üçün əlavə imkanlar açır

**P**rezident İlham Əliyevin Türkmənistan Xalq Məslələhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə bu ölkəyə işgüzar səfəri, təkbətək və geniş tərkibdə keçirdiyi görüşlər, Azərbaycan, Türkmənistan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün keçirilməsi, liderlərin iştirakı ilə sənədlərin imzalanması və mətbuata bəyanatları özündə mühüm məqamları ehtiva edir.

Azərbaycan və Türkmənistan eyni kökə, mədəniyyətə, qədim tarixi ənənələrə malikdirlər. Bundan başqa, bu xalqları dil və din eyniliyi də birləşdirir. Azərbaycan və Türkmənistan SSRİ-nin tərkibində müttəfiq respublikalar olub. Həmin dövrdə onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşıb. SSRİ dağıldıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlayıb. Ölkələrimiz arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da qurulub. 1999-cu ilin iyununda Türkmənistanın Bakıda, üç il sonra - 2002-ci ilin oktyabrında isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və türkmən xalqları arasında əlaqələrin tarixi qədimdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun keçirdikləri təkbətək və geniş tərkibdə görüşlərdə də bu reallıqlar bir daha diqqətə çatdırıldı. Ölkələrimiz arasında münasibətlərin başlanğıcını tarixin dərinliklərindən götürdüyünü qeyd edən Qurbanqulu Berdiməhəmmədov onu da bildirdi ki, ənənələrimiz oxşardır və bunlar bizi birləşdirən amillərdir. Siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar münasibətlərimiz məhz bu təməl üzərində inkişaf edir. "Əlaqələrimizin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Bu kontekstdə Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafı məqsədilə yeni təşəbbüslər irəli sürülür. Dövlətimizin başçısı İlham Əliyev bu məqamı xüsusi vurğuladı ki, türkmən və Azərbaycan xalqları, sözün əsl mənasında, qardaşdırlar və əsrlər boyu bu qardaşlıq hissləri ilə yaşamışlar. Hər iki ölkə müstəqil dövlətlər kimi böyük uğurlara imza atırlar. Tez-tez reallaşan qarşılıqlı səfərlər bütün bölgəyə və dünyaya çox ciddi mesajlar verir. Türkmənistan və Azərbaycan - qardaş dövlətlər, qardaş xalqlar hər zaman bir-birinin yanındadırlar" - deyə o əlavə edib.

Vüqar Rəhimzadə qeyd edib ki, səfərin əhəmiyyətini açıqlayan mühüm məqamlardan biri məhz Azərbaycan, Türkmənistan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün keçirilməsidir. Prezident İlham Əliyev görüşdə həm Azərbaycan-Türkmənistan, həm də Azərbaycan-Özbəkistan əlaqələrinin dünəninə, bu gününə diqqəti yönəldərək bildirdi ki, Azərbaycan, Türkmənistan və Özbəkistan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geosiyasi mövqeyə malikdir. Ölkələrimizin qarşısında nəqliyyat-tranzit əməkdaşlığı sahəsində yeni vəzifələr və imkanlar durur. Bunların arasında Orta dəhliz, limanların genişləndirilməsi, dəmir yolu məsələləri geniş müzakirə olundu. Üç ölkənin nəqliyyat, tranzit, logistika istiqamətində birgə səylər göstərməsi nəinki ölkələrimiz, böyük region üçün mühüm əhəmiyyət daşıyacaq.

Deputat bildirib ki, əməkdaşlıq əlaqələrinin inkişafında enerji amili əhəmiyyətli rol oynayır: "Hər üç ölkənin energetika sahəsində mövcud imkanları əməkdaşlığı şərtləndirir. 2021-ci ildə Azərbaycanla Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması enerji sahəsində əməkdaşlığı daha da möhkəmləndirir. Bu yataq iki ölkəni bir-birinə daha da yaxınlaşdırıb. Enerji yatağının iki dövlət tərəfindən birlikdə istismarı Xəzər dənizində yeni əməkdaşlıq formatının yaradılması deməkdir. Ölkəmiz Özbəkistanla da bu sahəyə artıq qədəm qoyub. SOCAR Özbəkistanda neft yatağının işlənilməsinə başlayıb, kontrakt imzalayıb. Dövlətimizin başçısı İlham Əliyev bu reallıqlara söykənərək belə bir əminliyi ifadə edib ki, yaxın bir-iki il ərzində gözəl xəbərlər verəcəklər. Özbəkistanda böyük neft yatağının kəşf edilməsi xəbərini hamımız səbirsizliklə gözləyirik".



V.Rəhimzadə vurğulayıb ki, Türkmənistan tərəfindən Füzuli şəhərində məscidin inşa olunması barədə qərar həmrəyliyin və mənəvi birliyin rəmzi kimi xalqımızın yaddaşında əbədi qalacaq. Həmçinin Füzuli və Arxadağ şəhərləri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında protokolun imzalanması mədəni və humanitar əməkdaşlıq üçün yeni imkanlar açır. Bütün bunlar göstərir ki, Azərbaycan-Türkmənistan münasibətləri yüksəliş dövrünü yaşayır. Münasibətlərimizin bütün sahələrdə inkişafı üçün birgə səylərimizi davam etdirəcəyik.

Deputat bildirib ki, Azərbaycan, Türkmənistan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün keçirilməsindən sonra liderlər mətbuata bəyanatlarında bir daha qarşıdakı dövrün hədəflərinə diqqəti yönəldiblər: "Bu görüşü tarixi gün kimi dəyərləndirən Prezident İlham Əliyev bildirdi ki, bölgəmizdə yeni, çox perspektivli, sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı yaradılır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev vurğuladı ki, tarixi görüş ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə, dayanıqlı ticarət, nəqliyyat və energetika dəhlizlərinin yaradılmasına, həmçinin regional inteqrasiya proseslərinin sürətlənməsinə xidmət edəcək. Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov isə üçtərəfli görüşün böyük əhəmiyyətə malik olduğunu önə çəkərək qeyd etdi ki, bu görüş üçtərəfli əlaqələri gücləndirmək üçün yeni imkanlar açır və bu kontekstdə qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün çox çalışmalıyıq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Yüksəkixtisaslı yerli kadrların yetişdirilməsinə növbəti dəstək



## BP və tərəfdaşlarının bu sosial layihəsindən aztəminatlı ailələrdən olan gənclər bəhrələniblər

Üç onillikdən çoxdur Azərbaycanda neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan BP şirkəti onların icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Bu vaxtadək əməliyyatçı şirkət öz tərəfdaşları ilə birlikdə həmin layihələrə 87 milyard dollardan çox sərmayə qoyub.

Bununla yanaşı, BP və tərəfdaşları ölkəmizdə geniş sosial proqramlar da həyata keçirirlər. "Biz ən çox töhfə verə biləcəyimizə inandığımız sahələrə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürmüşük",- deyə BP bəyan edib.

Həyata keçirilən bu geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səylər insanlara əhəmiyyətli faydalar gətirib. Belə ki, sosial sərmayələr yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.

Elə bu günlərdə BP Azərbaycanda yüksəkixtisaslı yerli kadrların yetişdirilməsinə dəstək məqsədli sosial sərmayə layihələrindən birinin üçüncü mərhələsinin uğurla başa çatdığını elan edib. Bu təhsil layihəsi şirkətin dünya səviyyəli yerli mütəxəssislər yetişdirməklə ölkənin dayanıqlı gələcəyinə töhfə vermək öhdəliyinin bir hissəsidir.

Əvvəlki mərhələlərin uğuruna əsaslanaraq, layihənin üçüncü mərhələsində 30 istedadlı azərbaycanlı gəncə dəstək verilib və onların hamısı Avropanın, Asiyanın və ABŞ-nin nüfuzlu beynəlxalq universitetlərinə qəbul olublar. İştirakçılardan 10-u bakalavr proqramlarına, 20-si isə magistr pilləsi üzrə müraciət edib.

Layihə iştirakçıları Bilkent Universiteti, London İmperial Kolleci, Kembric Universiteti, London Universitet Kolleci (UCL), Sinqapur Milli Universiteti, Kolumbiya Universiteti, Kaliforniya Universiteti, Berkli (UCB), Cons Hopkins Universiteti, Mançester Universiteti, Bolonya Universiteti, Honq Konq Universiteti və Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutu (KAIST) kimi dünyanın ən yüksək reytinqli universitetlərinə və digər nüfuzlu ali təhsil müəssisələrinə qəbul olublar. Bu nəticələr iştirakçıların yüksək akademik potensialını və layihə çərçivəsində göstərilən dəstəyin effektivliyini əks etdirir.

Qeyd edək ki, layihə iştirakçıları aztəminatlı ailələrdən seçiliblər. Layihə çərçivəsində onlara SAT və IELTS testlərinə və qəbul imtahanlarına hazırlıq təlimləri, həmçinin beynəlxalq tələbələrə tam təqaüd təklif edən universitetlərə müraciət etmək üçün təlimatlandırma daxil olmaqla hərtərəfli dəstək göstərilib. Nəticədə 30 tələbədən 24-ü artıq müxtəlif mənbələrdən təqaüd qazanıb, qalan 6 nəfərin təqaüd müraciətləri isə hazırda nəzərdən keçirilir.

Gənc istedadların nailiyyətlərini qeyd etmək münasibətilə keçirilən tədbirdə layihə iştirakçılarına sertifikatlar verilib və onlar öz gələcək planları ilə bağlı fikirlərini bölüşüblər.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu təşəbbüsün davamlı uğurlarını görməkdən çox məmnunuq. Layihə Azərbaycanın istedadlı gənclərinə dəstək olmaqla ölkənin parlaq gələcəyinin formalaşmasına töhfə verir. Dünyanın ən nüfuzlu universitetlərinə qəbul olan tələbələrin sayının artması onların istedadını və əzmkarlığını, eləcə də təhsilə sərmayə qoymağın vacibliyini bir daha təsdiqləyir. Biz milli kadrların inkişafını dəstəkləmək və Azərbaycanın dayanıqlı, firavan gələcəyinə töhfə vermək öhdəliyimizə sadiqik".

Ümumi dəyəri 150 min manat olan üçüncü mərhələnin müddəti 11 ay (2024-cü ilin avqustundan 2025-ci ilin iyuluna qədər) idi. Layihə yerli təşkilat - "ROOF Academic Training" tərəfindən həyata keçirilib.

Onu da əlavə edək ki, fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyiblər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Laçınlılar qürurlu günlərini yaşayırlar

Təqvimimizdəki qürur dolu günlərimizdən biri də 26 avqust Laçın Şəhəri Günüdür. Azərbaycan Prezidenti İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamına əsasən, Laçın şəhərinin işğaldan azad edildiyi 26 avqust Laçın Şəhəri Günü kimi qeyd olunur. İllərdən bəri çəkilmiş ağrı-acılar, yurd həsrəti xoş və yaddaqalan günlərlə əvəzlənib. Buna görə də işğaldan azad edilmiş torpağın da, uzun illərdən sonra onun qoynuna dönmüş insanların da üzü gülür.



Uca dağları, buz bulaqları, gözəl təbiəti, zəngin meşələri və bol sulu çayları ilə tanınan Laçın rayonu ölkəmizin ən qədim yaşayış məskənlərindən biridir. Zirvəsi buludlarla salamlaşan dağların əhatəsində, dərin dərələrin yamaclarında, sıx meşələrin qoynunda yerləşən Laçın rayonu olduqca mühüm strateji əhəmiyyətə malikdir. Rayonun torpaqları, dağları insanlar üçün çox gərəkli olan təbii sərvətlərlə zəngindir. Bu zənginlik Laçını insanlara çox sevdirir. Onun gözəlliyini görənlər heyrətlərini gizlətmir, bu gözəl diyarda qalmaq, yaşamaq istəyirlər.

1991-ci ildə Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra xaricdəki havadarlarına arxalanan erməni qəsbkarlarının işğalçı hücumları ilə Laçın da üz-üzə qaldı. Qarabağda baş qaldıran erməni separatizmi ətraf rayonda yaşayan sakinlər üçün də təhlükələr yaratmağa başladı. Laçın rayonu işğalçı Ermənistanla sərhəd idi. Həm də artıq tarixə qovuşmuş, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə bitişik idi. Laçın bir növ Qarabağla Ermənistan arasında dəhliz rolunu oynayırdı. Buna görə də ermənilər Qarabağa silah-sursat aparmaqda çətinlik çəkirdilər. Laçını özlərinə maneə bilən erməni separatçıları nəyin bahasına olursa olsun, bu gözəl diyarı ələ keçirməyə çalışırdılar.

Çirkin məqsədlərinə çatmaq üçün erməni qəsbkarları bir neçə gün davam edən gərgin döyüşlərdən sonra 17 may 1992-ci ildə Laçın rayonunu ələ keçirdilər. Bununla da, yağılar Ermənistandan Qarabağa maneəsiz keçmələrini təmin etdilər. Laçın rayonu düşmən işğalına məruz qalarkən 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Şəhər mərkəzini ələ keçirən daşnaklar evləri vəhşicəsinə dağıtdılar, yandırdılar. Erməni vandalları qısa müddət ərzində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələrini talan və məhv etdilər.

Doğma ocaqlarından didərgin düşmüş sakinlər 27 il Laçının həsrətini çəkə-çəkə yaşadılar. Ata-baba yurdlarına qayıdacaqları günü intizarla gözlədilər. Erməni hücumları nəticəsində doğma yurdundan köçkün düşmüş insanların gözlədikləri həmin xoşbəxt gün axır ki, gəlib çıxdı. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Həmin günlərdə xalqımızın cəsur oğulları yurdumuzun müdafiəsinə atıldılar. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında torpaqlarımızı işğaldan azad etməyə başladı. 44 günlük Vətən müharibəsi ordumuzun qələbəsi ilə başa çatdı. Ermənistan silahlı qüvvələri darmadağın edildi. Zəfərlə başa çatan müharibə bir daha dünyaya göstərdi ki, torpaqlarının işğalı ilə barışmayan Azərbaycan xalqı mübariz xalqdır. İkinci Qarabağ müharibəsində şanlı Azərbaycan Ordusu tərəfindən ağır məğlubiyyətə düçar edilmiş Ermənistan 10 noyabr 2020-ci ildə təslimçilik aktına imza ataraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını bir güllə atılmadan Azərbaycana qaytardı. Bütün dünya bir daha Ermənistanı işğalçı dövlət kimi gördü və tanıdı. Ermənilər 1 dekabr 2020-ci ildə Laçın rayonunu Azərbaycana təhvil verdilər.

Prezident İlham Əliyevin sərkərdəlik şücaəti, liderlik bacarığı, diplomatik istedadı, yorulmaz fəaliyyəti nəticəsində tariximizdə yeni, şərəfli bir səhifə açıldı. Laçınlıların torpaq nisgilinə son qoyuldu. Rayon sakinlərinin yurd həsrəti geridə qaldı, həyatlarının xoşbəxt səhifəsi başladı. Bu gün laçınlılar böyük sevinc və fərəh içində doğma torpaqlarına qayıdırlar. Yaxşı bilirlər ki, onları qarşıda sevinc dolu günlər gözləyir. Doğma ocaqlarına dönmüş laçınlılar qürur, sevinc dolu günlərinin təntənəsini yaşayırlar.

İftixarla demək olar ki, artıq Laçın rayonu Azərbaycanın digər bölgələri kimi inkişaf edir, sözün həqiqi mənasında, özünün çiçəklənmə dövrünü yaşayır. 2023-cü il mayın 28-dən, Müstəqillik Günündən laçınlıların doğma torpaqlarına qayıdışı başlayıb. Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə yaşamaq üçün keçmiş köçkünlərə hərtərəfli şərait yaradılıb. Rayonun başqa yaşayış məntəqələrində məskunlaşmağa başlayan əhalinin elektrik enerjisinə olan tələbatını ödəyəcək bir neçə elektrik stansiyası işə salınıb. Müasir yol infrastrukturu inşa olunub. Laçın rayonunun ərazisində aparılan geniş tikinti və quruculuq işləri bir gün, bir an olsun belə dayanmır. Yeni evlər, binalar tikilir, yeni məhəllələr salınır, yollar çəkilir. Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də müvafiq addımlar atılır. Həkəri çayında yaradılan astana və göl ilə yanaşı, şəhərin giriş hissəsində salınan çaykənarı bulvar həm sakinlərin, həm də rayona gələn turistlərin zövqünü oxşayır, rahatlığını təmin edir.

İşğaldan azad olunmuş ərazilərimizin inkişafını, tərəqqisini daim diqqətdə saxlayan Prezident İlham Əliyev Laçın rayonuna bir neçə dəfə səfərlər edib. Bu səfərlərin birində dövlətimizin başçısı aparılan quruculuq işlərindən bəhs edərək demişdir: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Laçın rayonunda əlamətdar hadisələrdən biri də 28 may 2025-ci ildə baş verdi. Həmin gün Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi oldu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aeroportun açılışını bildirən lenti kəsdilər. Dövlət başçılarına aeroportun simvolik açarları təqdim olundu. Bu hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulmuşdu.

Laçın Beynəlxalq Hava Limanının işə düşməsi bölgənin inkişafında mühüm rol oynayacaq. Rayonun sosial-iqtisadi inkişafına güclü təkan verməklə yanaşı, turizm potensialını artıracaq. Laçında aparılan quruculuq işlərini daha da sürətləndirəcək. Doğma ocaqlarına qayıdacaq laçınlıların sayı isə gündən-günə artır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Azərbazalt" zavodu Azərbaycanın texnoloji sabahına açılan qapıdır

Azərbaycanın zəngin təbii sərvətləri sırasında uzun illər diqqətdən kənarda qalan bir xəzinə də var - bazalt. İlk baxışda sıradan bir vulkanik daş kimi görünsə də, əslində, bu süxur parçası gələcəyin tikinti materialı, sənaye inqilabının aparıcı elementi, hətta iqlim dəyişmələrinə qarşı silah da ola bilər.

Bazalt nədir? Bu, vulkanik mənşəli, tünd rəngli (adətən, tünd boz və ya qara) və çox sıx, sərt bir daş növüdür. Həbəş dilində "bazal" (dəmirsaxlayan daş) sözündən törəyib və ilk dəfə qədim Roma yazıçısı və filosofu Böyük Plini tərəfindən işlədilib. Bazalt, əsasən, okean qabığında və vulkanik zonalarda lava axınının sürətlə soyuması nəticəsində əmələ gəlir. Bu səbəbdən vulkanik fəaliyyətin çox olduğu yerlərdə bazalt yataqları geniş yayılıb. Əsas mineralları piroksen, plagioklaz feldispat və bəzən olivindir. Bazalt az hallarda lifli və ya çox kiçik kristallardan ibarət ola bilər. Yol, bina, körpü və asfaltın alt təbəqəsi kimi tikinti sektorunda istifadə edilir. Onu dekorativ daş kimi parklarda, bağlarda, memarlıq abidələrinin üzərində də görmək olar.

Sənaye sahəsində bazalt lifləri böyük əhəmiyyət kəsb edir. Bu incə liflər beton və digər tikinti materiallarının möhkəmliyini artırmaq üçün istifadə olunur. Nəticədə daha dayanıqlı və uzunömürlü binalar, digər infrastrukturlar inşa edilir. Tarixə baxanda isə görürük ki, bazalt sadəcə müasir tikintidə deyil, qədim dövrlərdə də insanların həyatında önəmli rol oynayıb. O zamanın insanları bazaltdan cürbəcür məişət aləti və silahlar hazırlayaraq gündəlik həyatlarını asanlaşdırıb, eləcə də ondan müdafiə üçün istifadə ediblər. Maraqlıdır ki, bazalt daşları təkcə tarixdə qalmayıb, onlar bu gün də "canlı" şəkildə yaranır. Məsələn, İslandiya, Havay və digər vulkanik bölgələrdə lava axınları hələ də aktivdir və soyuduqca yeni bazalt təbəqələri əmələ gəlir.

Nə üçün biz onu indi daha çox xatırlayırıq? Çünki artıq dünya dəyişir, ölkələr enerji keçidinə, "yaşıl iqtisadiyyat"a, ekoloji təmiz texnologiyalara doğru yönəlir. Məhz bu dəyişmələr fonunda bazalt kimi süxurlar strateji əhəmiyyət daşıyan resursa çevrilir. Bu daş sadəcə yol tikintisi üçün deyil. Onun sayəsində müdafiə sənayesi möhkəm materiallar qazanır, 3D texnologiya isə lazım olan xammalla təmin edilir. Vulkanların bağrından qopan bazalt sənaye möcüzəsinə çevrilərək evlərimizdə bizi istilik itkisindən və yanğın təhlükəsindən qoruyan daş yunu formasında da həyatımıza daxil olur. Məlumat üçün bildirək ki, daş yunu bazalt kimi vulkanik daşların çox yüksək temperaturda əridilib, sonra lif halına gətirilməsi ilə əldə edilən istilik və səs izolyasiyası materialıdır. Binaların dam və fasad hissələrində, divar aralarında və sənaye obyektlərində istifadə olunan daş yunun üstünlükləri çoxdur. O, yanğın zamanı alovlanmır və formasını itirmir, soyuqdan qoruyaraq istiliyi özündə saxlayır, səsi udur, təbii olduğu üçün ətraf mühitə zərər vermir. Bir müsbət tərəfi də odur ki, gəmiricilər və ya böcəklər bu materialda yuva qurmur.

Bu qədər faydalı özəllikləri mümkün edən təbii sərvət isə heç də uzaqda deyil, elə öz torpaqlarımızdadır. Naxçıvanda, Göygöldə, Gədəbəydə, Talış dağlarında bazalt yataqları mövcuddur. Bu bölgələrin yerin dərinliklərindən gələn gücü bu gün artıq dəyərləndirilir. Təbii ki, onlar təkcə daş deyil, iqtisadi imkan, strateji resurs və texnoloji sıçrayış potensialıdır. Bəlkə də illərlə kimsə Göygöl dağlarında gəzərkən ayağına ilişən boz, sərt bir daş parçasının içində milyardlarla illik tarix, ölkəsinin iqtisadi gələcəyi, sabahın texnoloji inqilabı olduğunu düşünməyib. Halbuki adi görünən o bazalt, əslində, Azərbaycan üçün qüdrətli bir nemətdir.




Bazalt Azərbaycanın geoloji xəritəsində sadəcə bir resurs kimi deyil, inkişafın, sənayeləşmənin, müasir texnologiyanın təməli kimi yer alır. Bu sərt daş, əslində, təbiətin bizə bəxş etdiyi strateji imkanlardan biridir. Avqustun 20-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Gəncədə təməli qoyulan "Azərbazalt" zavodu bunun bariz nümunəsidir. Bu sənaye layihəsi təbiətlə dost, gələcəyə açılan bir qapıdır. Üstəlik də təbiətin bizə verdiyi strateji imkan, gələcək nəsillərə ötürüləcək milli sərvətdir.

Ümumi sahəsi 4 hektar olan bu zavodda ildə 360 min ton orqanik gübrə istehsal olunacaq. Müəssisə İsveç və Türkiyə texnologiyaları əsasında qurulur və burada istifadə olunacaq yüksəkkeyfiyyətli bazalt xammal olaraq, Göygöl rayonunun "Çaykənd" yatağından çıxarılacaq. Zavodda istehsal ediləcək məhsullar həm daxili bazarın tələbatını qarşılayacaq, həm də xarici bazarlara ixrac ediləcək. Burada təkcə bazalt daşı emal olunmayacaq, o, ümid yaradacaq, güvən formalaşdıracaq, gələcək inşa edəcək. Bu layihə, əslində, Azərbaycanın öz torpağına arxalanaraq sabahını qurmaq yolunda atdığı mühüm addımdır. Çünki bu torpağın dərinliklərində yalnız təbii sərvət deyil, güc var, iradə var, sabaha olan böyük inam var. "Azərbazalt" zavodu da məhz bu gücü dəyərləndirəcək. Hər çıxarılan daş, hər əridilən bazalt parçası müstəqilliyimizin, iqtisadi gücümüzün və texnoloji irəliləyişimizin bir parçasına çevriləcək. Bu zavod Azərbaycan insanı üçün yeni iş yeri, sabit gəlir və sosial rifah deməkdir. "Azərbazalt" bölgənin nəfəsidir, əllərin zəhməti, alnın təri ilə qurulan bir gələcək, yerli resurslarımızı beynəlxalq bazarlara daşıyan bir körpüdür. Bu gün Göygöldən çıxarılan bazalt sabah dünyanın ən müasir zavodlarında, 3D printerlərində, müdafiə texnikasında istifadə olunacaq. Azərbaycan adı yeni texnoloji məhsullarla birlikdə səslənəcək. Ən əsası isə zavod bir mesaj verir: "Azərbaycan öz təbii sərvətlərinə sahib çıxır, onları dəyərə çevirir və gələcəyə inamla addımlayır".

Biz illərlə torpağımızın üstündə gəzdik, amma altındakı sərvətin səsini çox gec eşitdik. Bazalt xalqın gücü, torpağın yadımıza saldığı səbir və potensialdır. İndi bazalt zavodlarda, laboratoriyalarda, layihələrdə, ixrac siyahılarında öz yerini tapmağa başlayıb. Bu daş çəkidə ağır olsa da, gələcəyimizi yüngülləşdirən dəyərli sərvətdir. Və günün birində hansısa kənd yolunda ayağımıza ilişən bazalt parçasına baxanda düşünəcəyik: bu sadə daş, əslində, bir xalqın iradəsini, zəhmətini və yenidən doğulan ümidini daşıyırmış...

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## *ECO-nun fəaliyyətində yeni mərhələ:*
# Azərbaycanın Xankəndi təşəbbüsü

İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv ölkələrin rəhbərlərinin Qarabağın qəlbi Xankəndidə toplaşması tarixi və siyasi hadisə kimi qiymətləndirilir. Dünyanın müxtəlif regionlarında özünü göstərən ziddiyyətli proseslərin fonunda bu, olduqca əhəmiyyətlidir. Müzakirə olunan məsələlər, irəli sürülən tezislər göstərir ki, bütövlükdə Azərbaycanın Qarabağ bölgəsinin qlobal əhəmiyyəti dinamik olaraq artır. Artıq azad Qarabağ nəinki Azərbaycan siyasi-coğrafi və mədəni-iqtisadi məkanına, hətta regional və qlobal miqyasa belə inteqrasiya olunur. Qarabağ Azərbaycanın qədim torpağı kimi dünyaya "günəş kimi doğur". O həm də yeni sülh və inkişaf yolunun başlanğıcıdır.

### Dünya siyasəti və islam ölkələri

Analitiklər qlobal geosiyasi proseslərdə regional təşkilatların rolunun artmasından bəhs edirlər. İslamın və islam ölkələrinin müasir mərhələdə həssas mövzulardan biri olduğunu nəzərə alsaq, onlarla bağlı istənilən təşəbbüsün dünya üçün əhəmiyyətinə şübhə yeri qalmır. Son zamanlar isə islam dövlətləri ilə bağlı bir sıra münaqişəli vəziyyətlərin yaranması məsələyə xüsusi aktuallıq gətirir. Fələstin, Yəmən, Suriya, İraq, Livan, İran, Pakistan hazırda dünya siyasətinin gündəmində duran ölkələr sırasındadırlar. Fələstin, Yəmən, Suriya, İraq, Livan və İran İsraillə Qərb koalisiyası, Pakistan isə Hindistanla bağlı dünyanın həssas mövzuları kimi siyasi şüurları məşğul edir.

Bunların fonunda Türkiyənin PKK məsələsini tarixdə görünməmiş dinc üsulla həll etməsi geosiyasi gündəmə ciddi təsir göstərməkdədir. Türkiyə diplomatiyasının bu gücü hər kəs üçün bir örnəkdir. Ayrıca, özlərini hər cəhətdən ən güclü sayan dövlətlərin Fələstin, Yəmən, Suriya, İraq, Livan, İran və Ukraynada hərbi güc tətbiqi ilə hadisələri öz xeyirlərinə dəyişmək cəhdləri fonunda Ankaranın sülhyaratma potensialı heyrət doğurmaqdadır.

Bütün bunların fonunda ECO-nun 17-ci Zirvə görüşünün Azərbaycanın Qarabağ bölgəsinin qədim şəhərlərindən olan Xankəndidə keçirilməsi olduqca əlamətdar hadisə idi. Bu həmin Xankəndidir ki, yadlar adına düşmənin ismini qoymuşdu və onu erməni terrorçuların paytaxtı etmişdilər. Bu həmin Xankəndidir ki, onu son yüz ildə ermənilərin havadarları Ermənistan adlandırdıqları forpost dövlətin vasitəsilə zaman-zaman təcavüz obyektinə çevirmişdilər. Son 30 ildə isə Bakıya məsləhət verirdilər ki, "Xankəndi ilə danışıqlar apar və razılaş!"

Bilirdik ki, sülh, sabitlik və inkişafın yolu Azərbaycan üçün Xankəndidən keçir, ancaq yad ssenarisi üzrə yox, müstəqil Azərbaycan dövlətinin ssenarisi üzrə! ECO-nun 17-ci Zirvə görüşünə bu reallığın işığında baxmaq ədalətlidir!

### Xankəndi: tarixilikdən siyasətin mərkəzinə

Azərbaycan Prezidenti böyük məharətlə, bütövlükdə, Qarabağı və ayrıca Xankəndini dünya siyasətinin mərkəzlərindən birinə çevirmişdir. İndi hər bir siyasətçi Xankəndi deyəndə, dərhal "Azərbaycan", "Qarabağ", "bərpa-quruculuq işləri" və "mühüm beynəlxalq tədbirlər" məkanı deyə düşünür. Bu sırada ECO-nun Zirvə görüşünün əhəmiyyəti başqadır. Onun dəqiq qiymətini Prezident İlham Əliyev Zirvə görüşünün gedişində vermişdir. Dövlət başçısı demişdir: "Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim".

Burada Xankəndi Azərbaycan şəhəri kimi dünyaya iki aspektdə təqdim olunur. Birincisi, 30 il sürən işğaldan sonra Qarabağın azad edilmiş mühüm şəhərlərindən biri kimi. İkincisi, ümumən, Qarabağ kontekstində artıq ənənə halını almış və beynəlxalq əhəmiyyətli tədbirlərin məkanlarından biri kimi. Hazırda həmin keyfiyyətdə Şuşa, Laçın və Xankəndi dünya siyasətinin Qafqazda döyünən "mədəni mərkəzləri"ndən biri kimi qəbul edilir. Azərbaycan Prezidenti bu yeni siyasi və geosiyasi gerçəkliyi diplomatik məharətlə təqdim etmişdir.

Dövlət başçısı aşağıdakı fikri təsadüfi bəyan etməmişdir. İlham Əliyev demişdir: "Bu gün isə ECO-nun Zirvə görüşü Xankəndidə, yeni inşa edilmiş Konqres Mərkəzində keçirilir". Yəni Azərbaycan tarixi baxımdan çox qısa müddətdə öz tarixi torpağı olan Qarabağda dünya səviyyəsində yüksək təşkilatçılıq reytinqinə malik olan məkanlardan biri kimi Xankəndini dünyaya göstərir! XX əsrin əvvəllərindən burada havadarlarının dəstəyi ilə at oynadan erməni terror düşüncəsi və rus imperiya təfəkkürünün 100 ildə edə bilmədiyini müstəqil Azərbaycan cəmi 5 ildə həyata keçirdi. Xankəndi qlobal tədbirləri təşkil edə biləcək Konqres Mərkəzinə malikdir!

Prezident Xankəndinin bu cür yüksəlişinin səbəbini də açıqlamışdır. İlham Əliyev bəyan etmişdir: "Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar". Son dərəcə aydın və dəqiq mesajdır. Hesablarını götürüb nəticə çıxarsınlar! Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi əbədidir!

### Böyük qayıdış: Qarabağ və Qərbi Azərbaycan konteksti

ECO-nun Zirvə tədbirində bu məsələnin gündəmə gətirilməsinin siyasi və geosiyasi anlamı böyükdür. Ekspertlər, bütövlükdə Xankəndi Zirvəsinin qlobal əhəmiyyətindən danışırlar.




Hətta "ECO sammiti: Xankəndi qlobal məsələlərin müzakirə meydanına çevrilir", "Xankəndidən dünyaya" və sairə kimi qiymətləndirmələr verilir. Bir sıra ekspertlər isə Xankəndini geosiyasi oyun qaydalarını dəyişən məkan kimi xarakterizə edirlər. Burada bölgə dövlətlərinin regional problemlərin həlli mərkəzinin Cənubi Qafqazda olması zərurətini artıq qəbul etdikləri nəzərdə tutulur. Bu baxımdan İran Prezidenti Məsud Pezeşkianın Xankəndiyə səfəri yüksək qiymətləndirilir.

Əlbəttə, bütün bu qiymətləndirmələr əsaslı və çox əhəmiyyətlidir. Lakin Azərbaycanın müstəqilliyi baxımından başqa bir məsələ də diqqət çəkir. Biz Böyük qayıdışı nəzərdə tuturuq. Prezident İlham Əliyev həmin kontekstdə iki tezisi vurğulamışdır.

Birincisi, Böyük qayıdış proqramı icra edilir. Bu günə qədər 21 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır". İkincisi, "Ermənistandan deportasiya olunmuş qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk.

Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair İstanbul Bəyannaməsində indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək".

Bu tezislərin müqayisəsi göstərir ki, indi Qarabağa olan Böyük qayıdış gələcəkdə Qərbi Azərbaycana da olacaq. Böyük qayıdışın ilk mərhələsidir. Azərbaycan heç bir halda bu istiqamətdə fəaliyyətini səngitməyəcəkdir. Qədim Azərbaycan torpağı olan Qərbi Azərbaycan əsl sahiblərinə qovuşacaq. Bu prosesin Şuşa, Xankəndi, Laçın, Ağdam, Füzuli və başqa Azərbaycan şəhərlərinin Qafqazın inkişaf və sülh mərkəzlərinə çevrilməsi əsasında aparılacağına inam böyükdür. Qarabağın bu şəhərləri Göyçənin, Zəngəzurun, Zəngibasarın, Dərələyəzin şəhərlərinin inkişaf və sülh mərkəzlərinə çevrilməsinin başlanğıcını qoyurlar. Bunun fonunda "Şərq-Qərb", "Şimal-Cənub", Orta dəhliz və digər kommunikasiya marşrutları region üçün inkişaf və barışıq yolları olacaq! Bunların hər birini təşkil edən və həyata keçirən isə Azərbaycan Respublikasıdır! Xankəndinin əsas mesajlarından biri bundan ibarətdir!

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri dinlənilib





Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi avqustun 26-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesinə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra məhkəmədə zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Qasim Məmmədhəsənovun hüquqi varisi - atası Bilal Məmmədhəsənov ifadəsində oğlunun Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin sualını cavablandıran zərərçəkmiş şəxs Rizvan Əhmədovun hüquqi varisi - anası Məkkə Əhmədova ifadəsində oğlunun Xocalı şəhərində düşmən tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini deyib.

Zərərçəkmiş şəxs Tural Seyidovun hüquqi varisi - anası Fəridə Seyidova oğlunun Xocalıda "KamAZ" markalı avtomobili idarə edərkən düşmən tərəfindən basdırılan minanın partlaması nəticəsində həlak olduğunu söyləyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş şəxs Ramin Hüseynovun hüquqi varisi Gülbəniz Əmiraslanova qeyd edib ki, oğlu Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində həyatını itirib.

Zərərçəkmiş şəxs Azər Məmmədovun hüquqi varisi - atası Mustafa Nemətov ifadəsində vurğulayıb ki, oğlu Zəngilanda düşmənin snayperdən açdığı atəş nəticəsində həlak olub.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş şəxs Məmməd Mərdanovun hüquqi varisi - atası Ələddin Mərdanov oğlunun tank əleyhinə minaya düşərək həlak olduğunu söyləyib.





Zərərçəkmiş şəxs İlham Şəmşiyevin hüquqi varisi Şahmar Şəmşiyev isə qardaşının Ağdərədə düşmənin təxribatı nəticəsində həlak olduğunu söyləyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualını cavablandıran zərərçəkmiş şəxs Əli Tağıyevin hüquqi varisi Səid Tağızadə ifadəsində diqqətə çatdırıb ki, qardaşı Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı snayper atəşi nəticəsində Ağdamda həyatını itirib.

Zərərçəkmiş şəxs Mirzəəli Mirzəzadənin hüquqi varisi - atası Kamran Mirzəyev oğlunun düşmənin təxribatı nəticəsində Ağdərədə həlak olduğunu deyib.

Zərərçəkmiş şəxs Nail Süleymanlının hüquqi varisi - atası Səfər Süleymanov ifadəsində qeyd edib ki, oğlu düşmənin təxribatı nəticəsində Xankəndidə həyatını itirib.

Zərərçəkmiş şəxs Röyal Beydiyevin hüquqi varisi - atası Nəsib Beydiyev baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında oğlunun Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində Xocavənddə həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxs Kənan Ağayevin hüquqi varisi - atası Vahid Ağayev oğlunun düşmənin təxribatı nəticəsində Xocavənddə snayperlə açılan atəş nəticəsində həlak olduğunu vurğulayıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında zərərçəkmiş şəxs Vüsal Şəhriyarovun hüquqi varisi - atası Təbiyyət Şəhriyarov oğlunun Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkən Vurğun Gülməmmədov ifadəsində qeyd edib ki, Ağdərə rayonu ərazisində düşmənin təxribatı zamanı snayper silahından açılan atəş nəticəsində bud-çanaq nahiyəsindən xəsarət alıb.



Əhləm Məmmədov ifadəsində Laçın rayonunun ərazisində düşmənin atdığı artilleriya mərmisinin partlaması nəticəsində Ömər Şirinovun həlak olduğunu, özünün və Faiq Cəfərovun, daha bir neçə nəfərin müxtəlif növ bədən xəsarətləri aldıqlarını deyib.

Zərərçəkən Röyal Məmmədov qeyd edib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət alıb. Həmin vaxt Emin Qarayev isə həlak olub.

Sabutay Ağabağırov ifadəsində deyib ki, Ağdərə rayonunda düşmənin atdığı artilleriya mərmisi nəticəsində o, eyni zamanda yanında olan yoldaşları Əli Heydərov, Samir Kərimov, Şamxal Qasımov, Ceyhun Abbasov, Tural Quliyev, İsgəndər Hüseynov və Əlizamin İsmayılov xəsarətlər alıblar.

Düşmən tərəfindən Ağdam rayonu istiqamətində avtomat silahlarından açılmış atəş nəticəsində sol qarın boşluğundan güllə yarası aldığını söyləyən Ülvi Həsənov ifadəsində bildirib ki, həmin vaxt Röyal Məmmədov və Murad Eyyubov həlak olublar.

Ehtiram Allahyarov Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan atəş nəticəsində Xocalı rayonu ərazisində güllə yarası aldığını deyib. O, təxribat zamanı Ramil Rzayevin və Sergey Heybətovun həyatlarını itirdiklərini bildirib.

Zərərçəkən Əli Cəfərli ifadəsində Ağdərə rayonundan Ağdam rayonuna geri qayıdarkən düşmən tərəfindən topdan açılan atəş nəticəsində müxtəlif nahiyələrindən qəlpə yarası, həmçinin kəllə-beyin travması aldığını vurğulayıb.

Ağdamın Papravənd kəndində idarə etdiyi avtomobilin düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində vurulduğunu deyən zərərçəkən Elşən Zərbalıyev diqqətə çatdırıb ki, o, hadisə zamanı xəsarət alıb.

Vüsal Lətifov ifadəsində bildirib ki, düşmənin təxribatı nəticəsində Ağdərə rayonu ərazisində Emin Abbaszadə və Ülvi Mikayılov həlak olub, özü isə yaralanıb.

Zərərçəkən Sərxan Kərimli vurğulayıb ki, işğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisində düşmənin yerləşdirdiyi qumbaranın partlaması nəticəsində xəsarət alıb.

Əvəzağa Abdullazadə ifadəsində deyib ki, o, Ağdərə və Xankəndi arasında, Narınclar kəndi istiqamətində qarşı tərəfin atdığı "F1" əl qumbarasının partlaması nəticəsində xəsarət alıb. Zərərçəkən hadisə zamanı daha 8 nəfərin yaralandığını vurğulayıb.

Zərərçəkənlər Vətən Verdiyev, İlkin İbrahimov, Şamxal Qasımov, Emin Cəfərov, Vaseh Eyvazov, Əmrah Əliyev, Şaiq Yediyarov və Şirxan Mustafayev ifadələrində düşmənin təxribatları nəticəsində Ağdərə istiqamətində xəsarət aldıqlarını qeyd ediblər.

Ramil Allahyarov, Samir Mirzəyev, Elvin Məmmədov, Rəvan Şəfizadə və İmran Bayramov ifadələrində Kəlbəcər istiqamətində düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını deyiblər.

Digər zərərçəkənlər Vasif Məmmədov, Rüstəm İsmayılov, Toğrul Nəcizadə, Altay Əhədov, Rəcəbəli Mirzəzadə, Rəşad Hudulov, Eltac Xəlilov, Elxan Məmmədzadə, Pərvin Səfərov və Sahib Bağırov ifadələrində Xocalı istiqamətində düşmənin açdığı atəşlər nəticəsində xəsarətlər aldıqlarını söyləyiblər.

Eldar Abbasov ifadəsində bildirib ki, Xankəndi şəhəri ərazisində yerləşən düşmən tərəfindən atılan pilotsuz uçuş aparatının yaxınlığına düşərək partlaması nəticəsində yanında olan Seymur Şabiyev həlak olub, o və Qismət Şükürov, Vurğun Sayılov, Vüsal Hüseynov, Nəsimi Ələkbərov xəsarətlər alıblar.

Zərərçəkən şəxs Qəhrəman İsmayılov ifadəsində deyib ki, düşmən tərəfindən Xocavənddə onların olduğu ərazi əvvəlcə raketlə vurulub, sonra digər silahlarla hədəf alınıb. Nəticədə o, bədəninin müxtəlif nahiyələrindən xəsarətlər alıb, Vüsal Rüstəmov, Elvin Əliyev və Əlibəy Əlibəyov həlak olublar.

Rüfət Səlimov qeyd edib ki, Xocalı rayonunun Əsgəran qəsəbəsi ərazisində yerləşən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan atəşlər nəticəsində o və yanında olan Azad Allahverdiyev xəsarətlər alıb.

Zərərçəkən Ceyhun Əsgərov ifadəsində diqqətə çatdırıb ki, Ağdərə rayonu ərazisində olarkən qarşı tərəfdən təcili tibbi yardım avtomobilinə atılmış iriçaplı mərminin partlaması nəticəsində o və tibb məntəqəsinin həkimi Yasin Quluzadə xəsarətlər alıb.

Tahir Zeynalov, Elsevər Kərimov, Qismət Şükürov Xankəndi, Hazar Bəndəliyev, Dünyamin Əzizov Xocavənd, Samir Zamanov, Əbülfəz Məlikov, Əli Babayev, Pərvin Əhmədli, Zakir Cəbrayılov, Taleh Zeynalov Ağdam istiqamətlərində düşmənin açdığı atəşlər nəticəsində yaralandıqlarını vurğulayıblar.

Digər zərərçəkənlər Sirus Qalallı, Umud Əliyev, Nemət Əskərov, Kamran Muradov, Famil Hüseynov, Alim Gülmalıyev, Vüqar Yusifov, İlyas Sadıqov, Rövşən Cəfərov, Ehtibar Abasquliyev də ifadələrində düşmənin təxribatı nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslər barəsində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası sentyabrın 2-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

İQTİSADİYYAT

# "Azərbaycan bərpaolunan enerjinin əsas istehsalçısı olmaq potensialına və ambisiyasına malikdir"

## Avropa Komissiyasının rəsmisi Kristina Lobilyo Borreronun bu fikri ilə digər beynəlxalq ekspertlər də həmrəydirlər

**Ölkəmizin "yaşıl gündəliyi" artıq bütün dünyaya bəllidir və geniş təqdir olunur. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ən azı 6 qiqavatlıq "yaşıl enerji" - günəş, külək və su-elektrik enerjisi istehsal ediləcək.**

Prezident İlham Əliyevin "yaşıl enerji zonası" elan etdiyi Qarabağ və Şərqi Zəngəzurda su-elektrik enerjisi əsas yer tutur. Bu günlərdə Kəlbəcərdə dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilmiş 3 yeni su-elektrik stansiyası da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərimizdə bu cür enerji obyektlərinin sayı 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb. Cəbrayıl rayonunda isə BP şikəti ilə 240 meqavatlıq "Şəfəq" Günəş-Elektik Stansiyası tikilməkdədir.

2023-cü il oktyabrın 26-da Bakıda 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salındı. "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovatsaat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. "Qaradağ" 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə qoyuluş gücü 240 MVt olan Xızı-Abşeron Külək-Elektrik Stansiyası layihəsini həyata keçirir.

"Qaradağ" stansiyasının açılış mərasimi çərçivəsində dövlətimizin başçısının iştirakı ilə Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirliklərininn"Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunda 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur. İnvestisiya müqavilələri 2022-ci ilin iyun ayında şirkətlə bərpaolunan enerji mənbələri üzrə 4 QVt gücündə "Meqa" layihələrin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqavilələrinin birinci mərhələsini əhatə edir. Keçən il iyunun 4-də isə Bakı Enerji Həftəsinin açılışı günü eyni zamanda sözügedən stansiyaların təməli qoyuldu.

Regional gündəlikdə də "yaşıl enerji" layihələri üzərində iş gedir. Təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də günəş və külək elektrik enerjisi stansiyaları yaradılır. Ötən il noyabrın 13-də Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də isə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Bunun üçün Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Yəni region təkcə Cənubi Qafqazı əhatə etmir, burada daha geniş coğrafiya əhatə olunur. Mərkəzi nöqtə isə məhz Azərbaycandır.

"Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir. Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim



çox böyük artım potensialımız var", - deyə Prezidentimiz bu ilin iyul ayında Xankəndidə keçirilən 3-cü Qlobal Media Forumunda həmin layihələrin də uğurla nəticələnəcəyinə inam ifadə etmişdir.

Bəs dünya siyasətçiləri, sahənin tanınmış mütəxəssisləri, beynəlxalq ekspertlər "yaşıl gündəliyimiz", onun gələcəyi haqqında nə fikirdədirlər? Heç bir şərh əlavə etmədən bir neçə rəyi misal gətirmək istərdik. Beləliklə, Avropa İttifaqının energetika və mənzil tikintisi komissarı Dan Yorgensenin bu il aprelin 4-də Bakıda, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının növbəti iclasında dediklərindən: "2030-cu ilədək qlobal metan emissiyalarının 30 faizədək azaldılması öhdəliyini götürmüş 160 ölkədən biri olaraq Azərbaycanın ötən il qoşulduğu Qlobal Metan Vədini vurğulamaq istəyirəm. Mən Azərbaycanın COP29-da bu məsələnin daha da qabardılmasına verdiyi töhfəni yüksək qiymətləndirirəm. Bu layihənin həyata keçirilməsi çox əhəmiyyətli olacaqdır. Eyni zamanda Azərbaycan xüsusilə enerji sektorunda metan emissiyalarının azaldılmasının müsbət təsirləri baxımından qlobal örnəyə çevrilib. Həmçinin Dövlət Neft Şirkətinin - SOCAR-ın Neft və Qaz Metan Tərəfdaşlıq 2.0-a qoşulması ilə Azərbaycan enerji sektorunda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılması və Avropa İttifaqının metan normalarına uyğunluğun təmin olunması istiqamətində doğru yoldadır… Bütün ölkələrimizdə bərpaolunan enerjinin yerli istehsalının inkişafı təbii qaza qənaət etməyə, münasib qiymətə elektrik enerjisinə çıxışı təmin etməyə və sənaye sahəsində rəqabətliliyi artırmağa kömək edə bilər. Xüsusilə Azərbaycana gəlincə, enerji səmərəliliyi və bərpaolunan enerji istiqamətində səylər qarşıdakı illərdə ixrac bazarları üçün daha çox qazı əhəmiyyətli dərəcədə əlçatan edə bilmək potensialına malikdir. Avropa İttifaqı Xəzər dənizində külək enerjisi texnologiyası da daxil olmaqla, Azərbaycanın böyük potensialını inkişaf etdirmək üçün onunla əməkdaşlığı gücləndirməyə hazırdır".

Avropa Komissiyasının Energetika Baş idarəsinin direktoru Kristina Lobilyo Borrero isə bu il iyunun 2-də 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılış mərasimində belə demişdir: "Tərəfdaşlığımız təkcə qazla bağlı deyil. Söhbət sabahın enerji sisteminin qurulmasından gedir. Bu, bərpaolunan elektrik enerjisi, hidrogen və inteqrasiya olunmuş enerji sistemlərinə sərmayə qoymaq deməkdir. Azərbaycan bərpaolunan enerjinin əsas istehsalçısı olmaq potensialına və ambisiyasına malikdir. Dənizdə külək və günəş enerjisini inkişaf etdirmək planlarınızı alqışlayırıq və Azərbaycanın nəhəng bərpaolunan enerji potensialını dəstəkləmək üçün birgə işi davam etdirməyə hazırıq. Əməkdaşlığımız daha çox yaxınlaşmağa doğru bu irəliləyişi əks etdirir. Biz Azərbaycanla birgə sərmayə qoymaq, layihələr hazırlamaq və həyata keçirmək istəyirik. Avropanın özəl sektoru bu baxımdan güclü tərəfdaşdır".

Adelaida Universitetinin iqtisadiyyat professoru, həmin universitetin Beynəlxalq Araşdırmalar Mərkəzinin baş elmi işçisi, beynəlxalq ticarət və iqtisadi inkişaf üzrə ekspert Riçard Pomfret bu günlərdə verdiyi müsahibədə ölkəmizin sözügedən sahədə perspektivlərini belə dəyərləndirmişdir: "Öz coğrafi mövqeyi, mövcud enerji infrastrukturu, həm Şərq, həm də Qərb tərəfdaşları ilə möhkəm əlaqələri sayəsində Azərbaycan regional enerji "platforma-dövləti"nə çevrilmək üçün yaxşı ilkin şərtlərə malikdir. Hidrogen və elektrik enerjisi dəhlizlərini əhatə edən "yaşıl dəhliz"lərin inkişafı Azərbaycanın enerji sektorunun modernləşdirilməsi və dekarbonizasiyası üzrə daha geniş strategiyasına tam uyğundur. Qara dənizin dibi ilə çəkiləcək enerji kabeli kimi layihələr Bakının Avropanın enerji sistemi ilə uzunmüddətli inteqrasiyaya sadiqliyini nümayiş etdirir. Davamlı investisiyalar və regional əməkdaşlıq şəraitində Azərbaycan bütövlükdə Avrasiya məkanında enerji keçidində mərkəzi rol oynaya bilər".

Beynəlxalq ekspert Rosmel Rodrigez də bərpaolunan enerji sahəsində Azərbaycanın potensialını yüksək qiymətləndirir: "Azərbaycanın bərpaolunan enerji sahəsində mühüm potensialı var. Buna onun əlverişli coğrafi və iqlim şəraiti, eləcə də enerji sektorunun şaxələndirilməsinə olan sadiqliyi kömək edir. Azərbaycan xüsusilə mərkəzi və şərq bölgələrində yüksək günəş radiasiyasından faydalanır və bu da onu günəş enerjisinin inkişafı üçün əlverişli edir. Xəzər dənizinin sahili bir neçə yüksəklikdə yerləşən regionlarla birlikdə əhəmiyyətli külək enerjisi potensialı təklif edir. Bu ərazilərdə küləyin sürəti külək stansiyalarının inkişafına kömək edir. Azərbaycan öz irimiqyaslı hidroenergetika potensialının böyük hissəsini artıq inkişaf etdirsə də, kiçik və orta ölçülü hidroenergetika layihələri üçün imkanlar qalır. Ölkənin çoxsaylı çayları və dağlıq ərazisi hidroenergetikadan sonrakı istifadə üçün əlverişli şərait yaradır. Azərbaycan biokütlədən, ilk növbədə, kənd təsərrüfatı tullantılarından enerji istehsal etmək potensialına malikdir. Bioenerji inkişafı kənd yerlərinin inkişafına və enerjinin şaxələndirilməsinə töhfə verə bilər. Kiçik Qafqaz regionu perspektivli enerji nümayiş etdirir. Azərbaycanın geotermal ehtiyatları, ilk növbədə, isitmə üçün yararlı olmaqla yanaşı, həm də elektrik enerjisi istehsalı potensialına malikdir".

Bu potensialı reallaşdırmaq üçün ölkəmizdə görülən işlər, start verilən layhələr də yüksək dəyərləndirilir. O da vurğulanır ki, Azərbaycan bərpaolunan enerji layihələrini inkişaf etdirmək üçün beynəlxalq təşkilatlar və şirkətlərlə uğurlu tərəfdaşlıq əlaqələri qurub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Laçına köçürülmüş sakinlərdən 1200-ə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi Laçın rayonuna köçürülmüş sakinlərlə bağlı aktiv məşğulluq tədbirlərini davam etdirir.**



Həmin sakinlərdən artıq 1200-ə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb olunub. Onlardan:

* 1132 nəfərin rayon ərazisində məşğulluğu təmin edilib (o cümlədən rayona köçürülmüş sakinlərdən 74 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb);
* 49 nəfər isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edilib.

Hazırda daha bir qrup sakinin məşğulluğuna dəstək işləri aparılır. Onların məşğulluq imkanları qiymətləndirilir və hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir.

## Son 5 ildə Azərbaycanda mobil telefon abunəçilərinin sayı 9 faizdən çox artıb

**2024-cü ildə Azərbaycanda mobil telefon abunəçilərinin sayı 11 milyon 323 minə çatıb ki, 5 il öncə bu rəqəm 10 milyon 344,3 min olub.**

AZƏRTAC Dövlət Statistika Komitəsinin yaydığı məlumata istinadən xəbər verir ki, ölkə üzrə ən çox mobil telefon abunəçisi Bakı şəhərinin payına düşür ki (5 milyon 191,4 min), bu da əvvəlki illə (2023-cü il) müqayisədə 6 faiz çoxdur.

Mobil telefon abunəçilərinin sayında ölkə üzrə ilk beşliyə Abşeron-Xızı (985,3 min), Gəncə-Daşkəsən (659,6), Mərkəzi Aran (548,5 min), Lənkəran-Astara iqtisadi rayonu (542,5) düşüb.

Qeyd olunan tarixdə Naxçıvan Muxtar Respublikasında mobil telefon abunəçilərinin sayı isə yarım milyonu ötüb (501,3 min).

## 30 min vətəndaş "Milli Proqram" çərçivəsində təlimlərdən yararlanıb

**"Milli Proqram" çərçivəsində indiyədək 30 minə yaxın vətəndaş 150 minə yaxın təlimdən ödənişsiz yararlanıb. "Milli Proqram"a qeydiyyat davam edir.**

İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə həyata keçirilən "4Sİ Akademiyası" çərçivəsində "Milli Proqram"a qeydiyyat davam edir.

Aprel ayından başlayan "Milli Proqram" çərçivəsində indiyədək 30 minə yaxın vətəndaş "Coursera" onlayn təhsil platformasında 150 minə yaxın təlimdən ödənişsiz yararlanıb. Vətəndaşlar 50 min təlimi uğurla başa vuraraq beynəlxalq sertifikatlar əldə ediblər.

İstifadəçilər daha çox süni intellekt və data elmi sahəsi üzrə təlimlərə müraciət ediblər. Eyni zamanda layihələrin idarə olunması, yumşaq bacarıqlar, kibertəhlükəsizlik, biznes, məntiq və riyaziyyat sahələri üzrə təlimlərə də müraciətlərin sayı artıb.




Proqram çərçivəsində spesifik sahələr üzrə kursları bitirən 760 nəfərə "Rəqəmsal nişan" (Digital badge) verilib. Bu nişan "Coursera" platformasında tövsiyə edilən 38 istiqamət üzrə ən azı 3 və ya 4 kursu bitirmiş şəxslərə təqdim edilir.

Ən çox "Rəqəmsal nişan" əldə olunmuş istiqamətlər:

1. Biznes və sahibkarlıq: Süni intellekt, strategiya və sahibkarlıq - 77 nişan
2. Rəqəmsal transformasiya: Dəyiş, innovasiya et, idarə et - 61 nişan
3. Layihələrin idarəolunması: Strategiya və icra - 54 nişan
4. Kibertəhlükəsizlik - kibermüdafiə: Hücumlardan öndə ol - 47 nişan
5. Rəqəmsal marketinq: Strategiya və süni intellekt : 47 nişan

"Milli Proqram" çərçivəsində 4SİM-in təşkilatçılığı ilə yerli ali təhsil müəssisələri və şirkətlər avqust ayından etibarən "Coursera" platformasında öz təlim və kurslarını yerləşdirməyə başlayıblar. Sumqayıt Dövlət Universiteti və "Safavy" onlayn təhsil platforması "Course Builder" aləti vasitəsilə artıq 20-dən çox təlimi "Coursera" platformasına inteqrasiya ediblər. Azərbaycan dilində təqdim edilən bu proqramlar yerli istifadəçilər tərəfindən maraqla qarşılanıb və artıq mindən çox istifadəçi bu təlimlərdən faydalanıb.

"Coursera" platformasında Oksford, Stənford, Yel, Dyuk, London, Edinburq, Mançestr, Miçiqan, Con Hopkins, İllinoys, Florida, Sidney, eləcə də "Microsoft", "Google", "Meta", IBM, "AWS", "Oracle", "Gitlab", "Intel", SAP, "Salesforce" kimi dünyanın 350-yə yaxın nüfuzlu universitet və aparıcı texnologiya şirkətlərinin 12 mindən çox sahəvi kurs və təlimi "Milli Proqram" istifadəçiləri üçün əlçatandır.

Qeyd edək ki, "Milli Proqram" çərçivəsində "Coursera" platformasında 15 ən çox tələb olunan  təlim Azərbaycan dilinə dublyaj olunub, 2500 kurs isə Azərbaycan dilində altyazı ilə təqdim olunur. (Kursların siyahısı - https://bit.ly/4ogG5Mw).

"Milli Proqram"ın əsas məqsədi Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirmək, vətəndaşların dördüncü sənaye inqilabı texnologiyaları üzrə bilik və bacarıqlarını artırmaq və əmək bazarında rəqabətqabiliyyətli kadrların hazırlanmasına dəstək verməkdir. Proqram çərçivəsində 1 il ərzində on minlərlə istifadəçinin dünyanın ən böyük onlayn tədris platforması olan "Coursera"da təlimlərdən faydalanması nəzərdə tutulub. Azərbaycan vətəndaşları yaşından və məşğulluq vəziyyətindən asılı olmayaraq, https://form.4sim.gov.az/ saytında qeydiyyatdan keçərək bu imkandan yararlana bilirlər.

Proqram SOCAR, "Paşa Holdinq", bp, JOCAP və "Azerconnect Group" kimi aparıcı şirkətlərin tərəfdaşlığı ilə həyata keçirilir.

Qeyd edək ki, ötən il "4Sİ Akademiyası"nın pilot mərhələsində 10 min nəfər "Coursera"dan faydalanıb, 4200-dən çox beynəlxalq sertifikat əldə olunub. Layihə 2024-cü ildə "Coursera" şirkəti tərəfindən "Üstün Nailiyyət Mükafatı 2024" müsabiqəsinin "Süni İntellekt İnnovasiyası" kateqoriyası üzrə qalib olub.

## Yanvar-iyul aylarında "Könüllü DOST" proqramından 900-dən çox şəxs yararlanıb

**"Könüllü DOST" proqramına bu ilin yanvar-iyul ayları ərzində 24 min müraciət olub, 928 şəxs proqrama cəlb olunub.**

Azərbaycanda könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olan bu proqramın  "Gənc DOST", "Gümüşü DOST" (yaşlılar üçün), "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST" kimi altproqramları fəaliyyət göstərir.

Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, e-sistemlərdən istifadə və s. üzrə köməklik göstərir.

Onlar dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş



məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.

Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.

## Dünya birjalarında neft ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neftin qiyməti ucuzlaşıb.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,34 dollar azalaraq 68,46 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,37 dollar azalaraq 64,43 dollar təşkil edib.





# Mədəniyyət






**Dəyərlərimiz**

# Maddi-mənəvi irsimiz tariximizdir

## Tarixi isə təkcə yaratmaq yox, həm də yaşatmaq lazımdır

**Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı Qarabağ ərazisində xalqımıza məxsus yüzlərlə tarixi, mədəniyyət və dini abidələr, qəbiristanlıqlar dağıdılıb, vandalizmə məruz qalıb. Dağıdılmış, məhv edilmiş maddi mədəniyyət nümunələri arasında təkcə Şuşa, Laçın və Qubadlının deyil, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Kəlbəcərin muzeylərində qorunub saxlanan sərvətlər talan edilərək Ermənistana daşınmışdır.**



Artıq işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun bərpa, yenidənqurma, inkişaf və çiçəklənmə dövrü başlayıb. İllərdir düşmənin dağıdaraq yerlə yeksan etdiyi yurd yerlərimizə indi yeni nəfəs, qaynar həyat gəlib. Quruculuq işləri çərçivəsində tarixi, mədəni və dini irsimiz bərpa və təmir olunur.

XVIII əsrin ortalarında Pənahəli xan Cavanşir tərəfindən yaradılmış Qarabağ xanlığı, inanc yerlərimiz, maddi-mədəniyyət nümunələri, tarixi binalar, Bayat, Şahbulaq, Əsgəran, Pənahabad qalaları əvvəlki həyatına qovuşub. Dövlət səviyyəsində qəbul olunan Birinci Böyük qayıdış proqramı çərçivəsində bölgənin qədim mədəniyyətini, iqtisadi, ictimai və mədəni tarixini hərtərəfli əks etdirən bu kimi tarixi yerlərin və abidələrin bərpası, habelə ədəbi, mədəni, ictimai xadimlərinin həyat və yaradıcılığını, fəaliyyətini əks etdirən ünvanların, ana dilimizin və maarifçiliyin təşəkkül tapdığı mədəni ocaqların mühafizəsi və tanıdılması ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Şuşa tarixən abidələr şəhəri kimi tanınıb. Lakin çox təəssüf ki, 1992-ci il may ayının 8-dən sonra burada xalqımıza məxsus maddi mədəniyyət nümunələri dağıdılıb. Erməni vandalizminin Azərbaycan ərazilərinə hərbi təcavüzü nəticəsində təkcə ötən əsrin 90-cı illərinin əvvəllərində Qarabağ və ona bitişik rayonlarda 13 dünya (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli muzey, 23 bağ, park, monumental və xatirə abidələrinin, 15 dekorativ sənət nümunəsi - tarixi və mədəniyyət nümunələrinin yerlə yeksan edilməsi faktı artıq bir sıra beynəlxalq təşkilatların rəsmi sənədlərində də əksini tapıb.

Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş Qarabağda və ətraf rayonlarda mədəni-dini irsimizin yenidən xalqa qaytarılmasında böyük xidmətləri var. Heydər Əliyev Fondunun layihələri əsasında indiyə qədər tarixi yaddaşımızın bərpasına, habelə milli-mənəvi kimliyimizin daşıyıcısı olan minlərlə abidəyə nəfəs verilib. Proses bu gün də yüksək səviyyədə davam edir. Tarixi Zəfərdən sonra Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa müraciətində "Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaq!" fikirləri artıq reallığa çevrilib.

Heydər Əliyev Fondu ötən müddət ərzində tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə öz dəstəyini verir. Fondun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihələrdə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də iştirak edirlər. Bərpa işləri Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən dəvət olunmuş mütəxəssislərin təkliflərinin geniş məsləhət-məşvərətdən sonra reallaşır. Həmin işlər dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələri əhatə edir. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Bununla bağlı beynəlxalq təcrübə öyrənilir və abidələrin bərpası, konservasiyası və yenidən qurulması üzrə işlərdə mütərəqqi üsullar tətbiq edilir.

Məlumdur ki, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi təmir-bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Kompleks Heydər Əliyev Fondu tərəfindən tarixi görkəminə uyğun bərpa edilib. Bundan əlavə, ötən müddət ərzində, həmçinin dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin, Xan qızı Natəvanın, Bülbülün heykəlləri fondun dəstəyi ilə yenidən qurularaq Şuşa şəhərində ucaldılıb.

Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhərin tarixi görkəminin bərpası üzrə də qısa müddət ərzində böyük işlər görülüb. Şəhərin tarixi abidələr yerləşən əraziləri zonalara ayrılıb. Bildiyimiz kimi, təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Bu abidələrin hər birinin bərpası xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə sərəncamı şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidənqurulması xüsusi həssaslıqla aparılır.

Heydər Əliyev Fondu tərəfindən aparılan bütün bərpa işlərinə, qeyd etdiyimiz kimi, xarici mütəxəssislər cəlb olunur, bu, tamamilə doğru yanaşmadır. Çünki bərpaolunan abidələr təkcə Azərbaycanın deyil, bütün dünyanın sərvətidir. İşğaldan azad edilmiş ərazilərdəki abidələrin bərpası Qarabağ Dirçəliş Fondu üçün də ən prioritet məsələdir. Fond bu işlərdə mütəmadi olaraq Heydər Əliyev Fondu ilə əməkdaşlıq edir.

İşğaldan azad ediləndə Şuşadakı abidələrin dağıntılara məruz qaldığı tarixi tikililər sırasında Aşağı Gövhər ağa məscidinin həyətindəki mədrəsənin bərpası son dərəcə həssaslıqla aparılıb. Avstriyanın "PARTNER Consulting+Projects" şirkəti tərəfindən bərpası başa çatdırılan Ağdam Cümə məscidi də diqqətçəkəndir. Məscid Qarabağın tarixi baxımından çox möhtəşəm bir abidədir. Bərpa işlərində əsas məqsəd məscidin əvvəlki görüntüsünü özünə qaytarmaq və tarixi abidələr sırasında ön sırada görüntülənməsinə nail olmaq idi. Çünki erməni işğalı dövründə məscidin bütün tarixi elementləri dəyişdirilmişdi. Artıq tikilinin əvvəlki görkəmi tamamilə özünə qaytarılıb.

Şuşa şəhərində Mehmandarovlar malikanə kompleksi də digər tarixi abidələrimiz kimi, erməni işğalı dövründə dağıntılara məruz qalmışdı. Burada da yüksəksəviyyəli bərpa işləri aparılıb, abidənin əvvəlki görkəmi özünə qaytarılıb. Aparılan işlər zamanı tarixi mənbələrdəki fotolardan istifadə edilib.

Yeni Şuşa məscidi müasirliyi ilə yanaşı, qədimliyi də özündə ehtiva edir. Məscidin tikintisində həm daş və ağac kimi yerli materiallardan, həm də bir sıra üslub elementlərindən istifadədə edilib. Bu möhtəşəm ziyarətgah Şuşanın ənənəvi tikililərinə bağlılığı ilə maraqlıdır. Mütəxəssislərin fikrincə, Şuşa - dəyər, tarix, irs, mədəniyyət və təbii gözəlliyi olan bir məkandır. Odur ki, şəhər həm qorunmalı, həm də bütün gözəllikləri və qədimliyi ilə gələcək nəsillərə ötürülməlidir. Reallaşdırılan layihədə Şuşaya xas olan elementlər genişliyi ilə yer alıb. Ətraf mühitlə həmahəng olan Yeni Şuşa məscidi həm də şəhərin azad olunması tarixini əks etdirir.

Bütün bu işlər həm də dünyaya bir mesajdır ki, biz öz tarixi, mədəni, dini irsimizə sahib çıxırıq, onları ən ağır vəziyyətdən xilas edirik. Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu tarixi müqəddəs işə rəhbərlik etməsi onu deməyə əsas verir ki, Qarabağın yenidən dirçəldilməsi, həyata qaytarılması qısa müddətdə başa çatacaq.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# MDB-nin mədəniyyət paytaxtı Laçın şəhərində gənclər düşərgəsi və kino günləri keçirilir

**Mədəniyyət Nazirliyi, Azərbaycan Gənclər Fondu, MDB üzrə Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) birgə təşkilatçılığı ilə avqustun 26-da Laçın şəhərində "MDB ölkələrinin beynəlxalq kino günləri" və "MDB ölkələrinin gənclər düşərgəsi" keçirilir.**



AZƏRTAC xəbər verir ki, layihə 26 avqust - Laçın Şəhəri Gününə həsr olunub. Şəhər günü münasibətilə Azərbaycanın tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə möhtəşəm konsert proqramı təqdim olunacaq.

Gənclər düşərgəsində Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan və Türkmənistandan nümayəndələr iştirak edir.

Düşərgə çərçivəsində iştirakçılar yaradıcı sənaye sahələrində 4 mövzu üzrə işçi qruplarında müzakirələr aparacaq, birgə layihələrin ideyalarını hazırlayıb təqdim edəcəklər. Gənclər qrup şəklində "Pantomim aktyor sənətinin tərkib hissəsi kimi" mövzusunda, eləcə də mobiloqrafiya, rəsm, keramika sahələri üzrə ustad dərslərinə də qatılacaqlar.

İşçi qrupların fəaliyyəti ilə MDB ölkələri gənclərinin əməkdaşlıq və birgə təşəbbüsləri üçün imkanlar yaradılacaq.

Rəssam Yusif Mirzənin "31 il sonra" adlı fərdi sərgisi isə Laçındakı mədəniyyət şöləninə rəng qatacaq.

"MDB ölkələrinin beynəlxalq kino günləri"ndə isə iştirakçı respublikaların hərəsindən bir film nümayiş olunacaq. Filmlər Azərbaycan dilində alt yazı ilə təqdim ediləcək.

Məlum olduğu kimi, MDB Humanitar Əməkdaşlıq Şurasının 2024-cü il oktyabrın 8-də qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikası Şərqi Zəngəzur iqtisadi rayonunun Laçın şəhəri 2025-ci il üzrə MDB-nin mədəniyyət paytaxtı elan edilib.

**Ziyarətgahlarımız**

# Sofi Həmid məqbərəsi - mənəvi dəyərlərimizin daha bir abidəsi

**Ölkəmizin ərazisində tarixi keçmişimizi, mədəniyyətimizi, mənəvi dəyərlərimizi daşlarında, divarlarında qoruyub saxlayan abidələr, ziyarətgahlar, məkanlar çoxdur. Bu abidə və ziyarətgahların araya-ərsəyə gəldiyi vaxtdan uzun illər, əsrlər keçməsinə baxmayaraq, onlar bu gün də tarixə şahidlik edə-edə görkəmi, əzəməti ilə görənləri heyran qoyur.**

Ulu keçmişimizi, adət-ənənələrimizi özündə yaşadan bir çox tarixi abidələr illər sonra xalqımızın ziyarətgahına, inam və inanc yerinə çevrilir. Həmin abidələrdən ziyarətçilərin ayağı heç vaxt kəsilmir. İnsanlar ürəklərində tutduqları niyyətlərinə, arzu və istəklərinə çatmaq üçün bu ziyarətgahlara üz tuturlar.

Belə abidələrdən biri də Qaradağ rayonunun Səngəçal və Umbakı qəsəbələri arasında, elə də hündür olmayan təpələrlə əhatə olunmuş ərazidə yerləşən Sofi Həmid piridir. Bu ziyarətgahın şəhərin mərkəzindən xeyli uzaq məsafədə yerləşməsinə baxmayaraq, insanlar bura ürəklərində min bir arzu və niyyət ilə tez-tez ziyarətə gəlirlər. Niyyətlərinin qəbul olunması üçün sidq ürəklə Tanrıya dua edirlər. Deyilənlərə görə, bu müqəddəs ziyarətgaha üz tutanlar arasında övlad sahibi olmaq arzusuyla yaşayan qadınlar çoxluq təşkil edir. Ziyarətçilərin dediklərinə görə, bu pirə inam gətirdiklərinə görə niyyətlərinə qovuşublar, övlad sahibi olublar.

Təəssüflər olsun ki, ziyarətgahın adını daşıyan Sofi Həmidin şəxsiyyəti haqqında tarixi mənbələrdə elə də ətraflı məlumat yoxdur. Rəvayətə görə, Sofi Həmid XIV əsrdə ölkəmizin ərazisinə molla kimi gələn bir ərəb taciridir. Taleyi, qisməti onu buralara gətirib çıxarıb. Ehtimal olunan yalnız odur ki, Sofi Həmid təmiz, vicdanlı bir Allah bəndəsi olub. Nümunəvi davranışı, maraqlı dini söhbətləri, saf əqidəsi və əxlaqı ilə yaxınlarının, doğmalarının rəğbətini, hörmətini qazanıb. Buna görə də dünyasını dəyişəndən bir müddət sonra dəfn olunduğu yer ziyarətgaha çevrilib. Bəzi məlumatlara görə, əvvəllər Sofi Həmidin qəbri üzərində türbə olmayıb. Görünür ki, məzarını ziyarət edənlərin sayı artdıqca XVIII əsrdə qəbrinin üstündə türbə tikilib. Sofi Həmid ziyarətgahı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qorunur.

Ölkəmizin ərazisindəki başqa ziyarətgahlarla müqayisədə sadə görkəmi olan Sofi Həmid türbəsi mahiyyət etibarilə çox zəngindir. Öncə qeyd olunmalıdır ki, ziyarətgah yerləşdiyi eyni adlı qəbiristanlıqla birlikdə həm tariximizi, həm folklorumuzu, həm də xalqımızın adət-ənənələrini özündə yaşadır. Bəzi məlumatlarda ərazinin ziyarətgah kimi mövcud olmasının əsasında dəvələrdən nəqliyyat vasitəsi kimi istifadə olunması ilə bağlı maraqlı bir rəvayətin dayandığı söylənilir.

Sofi Həmidin daşıdığı "Sofi" sözünün mənası çoxumuza yaxşı tanış və doğmadır. Deyilənlərə görə, Orta əsrlərdə, adətən, bu ad addım-addım müxtəlif əraziləri gəzən, səyahət edən, gəzib-dolaşdığı yerlərdə olan müqəddəs yerləri ziyarət edən şəxslərə verilirmiş. Bəzi məlumatlara görə, bu adı daşıyanlar daha çox gəzərgi mollalar olublar. Sofi Həmid də iman adamı kimi olduqca dəyərli bir ömür yaşayıb. Verilən məlumatlara görə, Həmid dəvəçiliklə məşğul olub, dolanışığını bu yolla təmin edib. El arasında sufi həyat tərzi ilə böyük mərifət sahibi kimi şöhrət qazanıb. Yavaş-yavaş tanınıb və sevilib. Sofi Həmid bütün varlığı ilə sufizmin təbliğatçılarından olub. El-el, oba-oba gəzərək insan təfəkkürünü daha da zənginləşdirən, adamları daim doğru yola çəkən dini dəyərləri təbliğ edib. Gəzdiyi yerlərdə Quran ayələrini, peyğəmbərin kəlamlarını, imamların müdrik sözlərini camaat arasında yayıb.

Hələ də yaddaşlarda xəyal kimi dolaşan fərziyələrə görə, ölümünün yaxınlaşdığı Sofi Həmidə əyan olanda səyahət yoldaşlarından xahiş edir ki, onu dəvəsinin istirahət etmək üçün dayandığı, dizini qatladığı yerdə dəfn etsinlər. Əqidə yoldaşları da canla, başla onun vəsiyyətinə əməl edirlər. Bu pak insanı,



Allah adamını vəsiyyət etdiyi yerdə, dəvəsinin dayandığı yerdə torpağa tapşırırlar.

Deyilənlərə görə, hazırda ziyarətgahın həyətinin ortasındakı heykəl də o zaman dəvə dizləri üstə necə dayanıbsa, həmin formada da daşdan yonublar. Həmid Sofinin məzarı ziyarətgaha çevriləndən indiyə qədər ürəyində niyyət tutub bu müqəddəs məkana gələnlər "ağ dəvə" ətrafında bəzi ritualları yerinə yetirirlər. İllərdən, əsrlərdən bəri formalaşmış inanca görə, əgər övladı olmayan qadınlar "ağ dəvə"nin altından keçərsə, onda o, mütləq ana olacaq. Bunun üçün o, dəvənin altından üç dəfə keçməlidir. Ümumiyyətlə, inanca görə, dizləri üstə əyilən "ağ dəvə" ilə yer arasında yaranmış çox qısa məsafəni keçə bilən insan ürəyində tutduğu bütün arzu və istəklərinə çatır. Buna görə də ziyarətə gələnlərin hamısı heykəlin altından keçməyə çalışır. Yəqin elə buna görədir ki, illərdən, əsrlərdən bəri axın-axın bu müqəddəs məkana üz tutan ziyarətçilərin çoxluğuna tab gətirməyən heykəlin altındakı mərmər örtüklü qat bir az aşağı çöküb.

Ziyarətgahın həyətində digər diqqəti cəlb edən məqam divar boyu uzanan üzüm ağaclarına bağlanmış müxtəlif rəngli parça qırıqlarıdır. Bəzi hallarda parça və dəsmaldan düzəldilmiş uşaq bələk və beşiklərinə də rast gəlmək mümkündür. "Beşik"lər əslində olduğu kimi, hər iki tərəfdən ağacın budaqlarına bağlanıb. Deyilənlərə görə, əvvəllər ziyarətə gələnlər ürəklərində niyyətlərini tutduqdan sonra parçanı dəvənin boynuna bağlayarmışlar. Amma yavaş-yavaş zaman keçdikcə, ənənələr dəyişib.

Haqqında söhbət açdığımız ziyarətgah quruluş etibarilə elə də mürəkkəb deyil, olduqca sadədir. Hündür ağ divarlarla əhatəyə alınmış pirin həyətinə gürmək üçün üçün səliqəli, kiçik dəmir qapı qoyulub. Ziyarətgah Sofi Həmidin dəfn olunduğu türbədən və insanların diqqətini elə ilk dəqiqədən cəlb edən "ağ dəvə" heykəlindən ibarətdir. Artıq formalaşmış inanca görə, pirə gələnlər əvvəlcə "ağ dəvə"ni, sonra isə Sofi Həmidin məzarını ziyarət etməlidirlər. Həmidin qəbri, həyətin baş tərəfində, kiçik və sadə evə bənzər türbədə yerləşir.

Sofi Həmiddə olan qəbiristanlıqdakı qəbir abidələrin çoxu SSRİ dövründə qoyulduğundan özündə sovet üslubunu əks etdirir. Tarixdən məlumdur ki, sovetlərin siyasətinin mərkəzində ateizmin təbliği dayanırdı. Bu kimi sərsəm ideologiyanın təsiri qəbiristanlıqlarda da izini qoyub. Həmin dövrdə qəbirlərin üzərində daha çox mərhumun məşğul olduğu sənət növünün təsvirləri var. Beləliklə, Sofi Həmid qəbiristanlığı həmin dövrdə Azərbaycanda islam təsirinin zəiflədiyini göstərir. Çünki məzar daşlarının müxtəlif yerlərində və baş daşında dünyasını dəyişmiş şəxsin cinsini, maraq dairəsini və ya peşəsini ifadə edən fiqurlar işlənib. Qəbiristanlıqda arxada qalmış həmin illərdə əhəngdaşından yonulmuş sadə qəbir daşlarının əvəzinə, hündür pydestallı, beşguşəli iri sovet ulduzu və vəfat etmiş mərhumun işlədiyi sənəti ilə bağlı simvollar vurulmuş qəbirlər daha çox təşkil edir. Amma indi buradakı qəbirlərin də forma və simvolları dəyişir. İllər keçdikcə, qəbirlərin üzərindəki təsvirlər də yavaş-yavaş başqa şəkil alır. O üzdən demək olar ki, ziyarətgah həm də dünənimizin tarixini özündə əks etdirən bir məkandır. Bu müqəddəs yerlərin dəyəri və qiyməti həm də elə bundadır. Ona görə də bütün tarixi mədəni abidələrimizi həm qoruyub saxlamaq, həm də onu tədqiq etmək elmimiz və cəmiyyətimiz üçün çox dəyərli olardı.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

BEYNƏLXALQ HƏYAT

# Neft ölkəsində yanacaq böhranı

Son zamanlar Rusiyada qiymət artımı və regionlara tədarükdə problemlər müşahidə olunan benzin qıtlığı yaşanır. Vəziyyət bu günlər xeyli pisləşib və böhranın əsas səbəbləri Ukraynanın pilotsuz təyyarələrinin neft emalı zavodlarına hücumlarının nəticələri, habelə logistik və iqtisadi amillərdir.




Rusiya növbəti dəfə benzin böhranı yaşayır - qiymətlər qalxır, bəzi yanacaqdoldurma məntəqələrində isə, sadəcə olaraq, yanacaq tükənib. Bu problem yeni deyil, lakin o, əvvəlkilərdən daha dərin və uzunmüddətli görünür. Ancaq yerli ekspertlərin fikrincə, hələlik vəziyyət çətin olsa da, idarə olunandır. Dövlətin böhranın şiddətini azaltmaq üçün alətləri var. Güman edilir ki, nəqliyyat sektoru, sənaye, kənd təsərrüfatı və Rusiya dövləti üçün prioritet olan ordu yaxın gələcəkdə yanacaq çatışmazlığı ilə təhdid edilməyəcək.

Xatırladaq ki, Rusiyada benzin böhranları Ukrayna savaşından əvvəl - məsələn, 2011-ci, 2018-ci, 2021-ci illərdə də baş vermişdi. Həmin dövr səbəb hökumətin istehsalçılara kompensasiyaları azaltmaqla büdcəni tarazlaşdırmaq üçün səriştəsiz cəhdləri olmuşdur. 2024-cü ildə isə yanacaq bazarı nisbətən sabit qalmışdı, baxmayaraq ki, Rusiya neft emalı zavodlarına dron zərbələri məhz o vaxt endirilməyə başlamışdı.

2025-ci il avqustun 2-də başlayan yeni hücum dalğası fərqli xarakter daşıyır. Ukrayna indi xeyli böyük dron ehtiyatına malikdir və Rusiyanın hava hücumundan müdafiə sistemini həddən artıq yükləyən müntəzəm kütləvi hücumlar həyata keçirməyə qadirdir. Bundan əlavə, Ukrayna dronlarının naviqasiya imkanları nəzərəçarpacaq dərəcədə yaxşılaşıb.

Ukrayna tərəfinin hazırkı taktikası 2024-cü ildə olduğu kimi, təkcə hasilat həcmini azaltmaq deyil, istismardan çıxarılana qədər zavodlara maksimum ziyan vurmaq üçün kütləvi hücumlar həyata keçirməkdir. Eyni zamanda Ukrayna daimi hücumları davam etdirmək imkanına malikdir: zədələnmiş neftayırma zavodlarına təkrar zərbələr endirilir və nəticədə onların istehsal potensialının bərpası ləngiyir.

2025-ci il avqustun ortalarına qədər Rusiyadakı Uxta, Ryazan, Saratov və Volqoqrad neft emalı zavodları, həmçinin Samara qrupunun hər üç zavodu (Sızran, Novokuybışev və Samara) zədələnib. Bundan əlavə, Rostov vilayətində və Krasnodar diyarındakı zavodlar mütəmadi olaraq hücumlara məruz qalır.

Kəsirin nəticələrini həm sadə vətəndaşlar, həm də biznes hiss edir. Rusiya regionlarındakı yanacaqdoldurma məntəqələrində uzun növbələr yaranır ki, bu da yanacağın kəskin çatışmazlığından xəbər verir.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” qəzetinə

2025-ci il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Azərmətbuatyayımı” ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
"Siz böyük lidersiniz"
Donald Trampdan İlham Əliyevə
QIZIL AÇARLI BÖYÜK LİDER
Xalqın MEHRİBANI
Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə
Dünyanın 1 nömrəli ofisində imzalanan sənədlər
Sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı
Biz qayıtmışıq, Laçın!

Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# İnsanlar Qəzzada aclıqla sınağa çəkilirlər

Qəzza zolağında aclıq sürətlə genişlənir. Bölgədə mövcud vəziyyətin həlli üçün kompleks tədbirlər görülməsə, aclıq asanlıqla Fələstin anklavının digər ərazilərinə də keçə bilər. Bu barədə "Anadolu"ya BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin (OCHA) nümayəndəsi Olqa Çerevko məlumat verib.



O.Çerevko qeyd edib ki, Qəzza zolağında aclıq və ərzaq qıtlığı geniş vüsət alıb və İnteqrasiya Edilmiş Qida Təhlükəsizliyi Faza Təsnifatı (IPC) çərçivəsində dərc edilən yeni hesabatda bu təsdiq heç də təəccüblü deyil: "Biz nə qədər dəhşətli olsa da, aylardır bu barədə xəbərdar etmişik. Biz bu məsələni qaldırmışıq və mümkün olan hər bir forumda onun təhlükəsini vurğulamışıq. Bunun bir neçə aydır ki, davam etdiyini və vəziyyət belə davam edərsə, ən pis ssenarini görəcəyimizi demişik".

OCHA nümayəndəsi xatırladıb ki, hesabata görə, mövcud vəziyyət hərtərəfli və düzgün yanaşma ilə həll edilməsə, aclıq asanlıqla Fələstin anklavının digər ərazilərinə də keçə bilər. "Hazırda Qəzzada aclığı dayandırmağın yeganə yolu kifayət qədər qidanın mövcud olmasını və ən həssas təbəqələrə çatdırılmasını təmin etməkdir. Qarşılaşdığımız maneələr aradan qaldırılmalıdır və ən həssas insanlara çıxış daimi, proqnozlaşdırıla bilən və təhlükəsiz olmalıdır", - deyə Çerevko bildirib. O qeyd edib ki, Qəzzanın cənubundakı Nasser xəstəxanasına qida çatışmazlığı səbəbindən daxil olan xəstələrin sayı hər gün artır və böhran aylardır davam edir. "Qəzzada aclıq hazırda sürətlə artmaqda olan bir mərhələdədir", - deyən Çerevko humanitar yardımın sürətlə çatdırılması üçün Qəzzada bütün keçidlərin açılmasına dair əbəs cəhdlərə diqqət çəkib. BMT nümayəndəsi bildirib ki, OCHA əməkdaşları Qəzzaya humanitar yardımın maneəsiz çatdırılmasını tələb edirlər, lakin bəzi hallarda bu, artıq gec olur.

O.Çerevko xatırladıb ki, aclıqla bağlı yeni hesabatda humanitar yardımın çatdırılmasında çoxsaylı gecikmələr var. "Qarşısını almaq mümkün olan itkilər artıq baş verib. Müəyyən planların və qərarların dayandırılmasını və aradan qaldırılmasını tələb etsəydik, yaranmış bu vəziyyətin qarşısını almaq olardı. Lakin təəssüflər olsun ki, heç bir tədbir görülmədi, atılan addımlar isə yetərli olmadı", - deyə o bildirib. O.Çerevko qeyd edib ki, beynəlxalq ictimaiyyət və digər maraqlı tərəflər Qəzza zolağındakı vəziyyətlə bağlı heç bir addım atmasa, OCHA əməkdaşları nə baş verə biləcəyini proqnozlaşdıra bilməz.

"Atəşkəs dövründə Qəzza zolağına hər gün yüzlərlə yük maşını daxil olurdu. İndi isə bu rəqəm onlarladır", - deyə BMT OCHA nümayəndəsi xatırladıb. "Və bu baxımdan biz tələb olunan göstəricilərdən xeyli geridəyik. Biz genişmiqyaslı tədarüklərə hazırıq. İnsanlara kömək etmək üçün hər şeyə hazırıq. Lakin bizə yerlərdə şərait və onu gücləndirmək üçün daha çox yardım, eləcə də kommersiya ləvazimatları lazımdır". O.Çerevko həmçinin Qəzzada görüşdüyü insanların iki ildir ağır vəziyyətlərini əks etdirən böyük bir qorxu və etibarsızlıq yaşadıqlarını söyləyib.

OCHA nümayəndəsi onu da qeyd edib ki, bir çox fələstinlilər öz imkanlarının son həddinə çatıb: "Mən çox narahatam ki, əgər bu dayanmasa və münaqişənin həlli tezliklə tapılmasa, biz geridönüşü olmayan bir nöqtəyə çatacağıq. Biz də görürük ki, bu hücumlar davam edir və insanlar aclıqdan ölür. Bütün ümidlərimiz atəşkəsə bağlıdır. Bütün girovların şərtsiz və dərhal azad edilməsi zəruridir, vəziyyət dəyişməlidir. Bu iztirab və aclığa son qoyulmalıdır ".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Möcüzə"lər kitabına düşənlər

## Ginnesin Rekordlar Kitabı 70 ildir ki, nəşr olunur

**"Qızılı cüllüt, yoxsa şotland tetra quşu daha sürətlidir?"**

Hər şey cavabı olmayan bir sualla başladı, nəticədə bütün dünyanı bir araya gətirən kitaba çevrildi. Söhbət kiçikdən-böyüyə hər kəsin maraq obyektində olan Ginnesin Rekordlar Kitabından gedir. O zamanlar maraqlı məlumatları özündə cəmləşdirən kitab olmadığından, "Ginness" pivə zavodunun direktoru Hyu Bive belə bir nəşr hazırlamaq qərarına gəlir. Beləliklə o, bu işi Londonda məlumat agentliyinə sahib olan Norris və Ross Makuirter qardaşlarına tapşırır. 1954-cü ildə birinci kitabın nəşri üçün pivə zavodunun sahibi tərəfindən "Guinness World Records Limited" şirkəti yaradılır, sonradan kitabın çap hüququ bir neçə dəfə satılır. 1954-cü ilin avqustunda soraq kitabının ilk variantı hazırlanır və çap olunaraq 1000 nüsxə pulsuz paylanır. Növbəti ilin avqust ayının 27-də isə 197 səhifəlik kitab satışa çıxarılır və Milad bayramı ərəfəsində İngiltərədə ən çox satılan kitablar siyahısında yer alır. 1956-cı ildə rekordlar kitabı ABŞ-də 70 min nüsxə ilə satışa çıxarılır.

Kitab dünyada ən çox oxunan və satılan kitablar arasındadır. O, özündə insanlar, heyvanlar və təbiətdə baş verən qeyri-adi nailiyyətləri toplayır. Hər il yenilənən nəşrdə yeni rekordlar göstərilir.

Kitab yalnız yeni rekord deyil, insan iradəsinin simvolu kimi də qəbul edilir. Çünki Ginnesin Rekordlar Kitabına düşmək üçün sərhədləri aşaraq yeni bir nailiyyətə imza atmalı olursan. Təbii ki, bütün bunlar o qədər də asanlıqla başa gəlmir. Bəzən bu, təhlükəli xarakter alan hərəkətlərlə də müşahidə olunur. Nəşrə düşmək üçün müraciətlər isə hakimlər tərəfindən dəqiqliklə yoxlanılır və bir neçə mərhələdən sonra təsdiqlənir.

### Azərbaycanlı rekordçular

Azərbaycandan da bu möcüzələr kitabına düşənlər var. Cəbrayıl rayonundan qrafika ustası Fəxrəddin Vəliyev 2004-cü ildə 5 dəqiqə ərzində 20 nəfərin siluetini çəkərək rekorda imza atıb. Rekord qıran digər həmyerlimiz isə 7 yaşlı Lənkəran rayon Aşağı Nüvədi kənd sakini Ələsgər Həsənzadə olub. O, 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucunda sinəsini yerə vurmadan 3000 dəfə qalxıb-enib. Bu nailiyyətlə o, Ginnesin Rekordlar Kitabına düşən ən gənc şəxs olub.

Qədir Hüseynov isə Rumıniyada keçirilən şahmat üzrə Avropa çempionatında 1-ci yer tutaraq 8 yaşında adını bu nəşrə yazdırıb.

Gürcüstanda yaşayan həmyerlimiz, "maqnit adam" kimi tanınan Etibar Elçiyev isə bədənində eyni anda 50 metal qaşığı saxlamaqla 2014-cü ildə Ginnesin Rekordlar Kitabına düşüb.

Dənizkənarı Milli Parkda Bayraq Meydanında dalğalanan bayrağımız da Ginnes nəşrinə ən hündür bayraq dirəyi kimi daxil edilib. 2010-cu ildə 162 metr hündürlüyü ilə kitaba daxil edilən dirək 2024-cü ildə rekordu yeniləyərək 192 metrlə yenidən daxil edilib.

Neft daşları isə Ginnesin Rekordlar Kitabına ilk dənizdə yerləşən neft platforması kimi düşüb. İçərişəhərdə yerləşən Zərifə Salahova tərəfindən yaradılan Bakı Miniatür Kitab Muzeyi də Ginnes sertifikatına layiq görülüb. Belə ki, bura dünyanın ən böyük özəl minikitab muzeyi kimi rekord qırıb. Kitabxanada təxminən 6500 minikitabdan ibarət kolleksiya yer alır.

Təəssüf ki, Bakıda baş verən faciəvi bir hadisə də Ginnesin Rekordlar Kitabına düşüb. 1995-ci ilin oktyabr ayında "Ulduz" və "Nəriman Nərimanov" metro stansiyaları arasında qatarın yanması nəticəsində təxminən 300 nəfər həlak olub, 400 nəfər isə yaralanıb. Bu hadisə "ən dəhşətli metro qəzası" kimi nəşrə daxil edilib.

Bu il isə dünyanın ən uzunmüddətli kişi şahmat hakimi kimi Faiq Həsənovun adı Ginnesin Rekordlar Kitabına düşüb. O, 60 il 149 gün ərzində müxtəlif şahmat oyunlarında hakimlik edib. F.Həsənovun adı həmçinin ən uzunömürlü idman proqramının müəllifi kimi də kitaba düşüb. 1969-cu ildən yayımlanmağa başlanan "Televiziya Şahmat Klubu" 55 il 277 gün efirlə rekord qırıb. Beləliklə, Faiq Həsənovun adı iki fərqli rekordla "möcüzə"lər kitabına salınıb.

70 ildir nəşr edilən kitaba düşmək bu gün də bir çoxunun arzusudur. Elə buna görə günümüzdə qəribə hərəkətlər və ya vərdişlərlə gündəmə gəlib rekord qırmağa çalışanları görürük. Təbii ki, məqsəd Ginnesin Rekordlar Kitabına düşməkdir. Bəzən isə təhlükəli xarakter alan hərəkətlərin də şahidi oluruq. "Möcüzə"lər kitabına düşərək adını tarixə yazdırmaq hər nə qədər maraqlı səslənsə də, amma bunun üçün həyati risk daşıyan hərəkətlərdən çəkinmək lazımdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək, arabir güclənən külək əsəcək

Azərbaycanda avqustun 27-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 45-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zağulbada 25-26, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 26-27 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı gözlənilir.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 34-39 dərəcə isti olacağı proqnozlaşdırılır.



Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Gecə və səhər duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 27-32 dərəcə isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Gecə və səhər duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18, gündüz 25-30 dərəcə, bəzi yerlərdə 33 dərəcəyədək isti olacağı bildirilir.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Gecə və səhər duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-25, gündüz 35-39 dərəcə isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23, gündüz 31-36, dağlarda gecə 10-15, gündüz 24-29 isti olacağı gözlənilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26, gündüz 34-39 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda havanın əsasən yağmursuz keçəcəyi, lakin gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-24, gündüz 31-36, dağlarda gecə 17-20, gündüz 26-31 dərəcə isti olacaq.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3993
Sifariş 1763

Qiyməti 60 qəpik